QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 023 (5743) **5 fevral** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Azərbaycan Prezidentinin hər bəyanatı Ermənistanı təlaşlandırır

*<u>İlham Əliyev:</u> "Azərbaycan öz ərazilərinin işğalı ilə heç vaxt barışmayacaq və Azərbaycan döyüş meydanında öz gücünü göstərib"*



Səh 3

"Azərbaycanda kosmik sənayenin inkişafı ən prioritet istiqamətlərdən biridir" — 2



V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu mayda keçiriləcək — 2



Şəhid anası: "Dövlət başçısının şəhidlərə olan münasibətindən məmnunam" — 5



İstintaq Serj Sarkisyanı sorğu-sual edib — 5



Özbəkistanın portalı: Dağlıq Qarabağ münaqişəsi davam etdikcə Ermənistan iqtisadiyyatı itirəcək — 6



Bolqarıstanın Baş naziri Bakıya gələcək — 2



5 — Ermənistanda yüzlərlə alimin işsiz qalacağı gözlənilir



13 — "Milli Şura"da gizli savaş



16 — Güləş yığmamız İstanbulda 5 medal qazanıb



# "Azərbaycanda kosmik sənayenin inkişafı ən prioritet istiqamətlərdən biridir"

*Prezident İlham Əliyev Beynəlxalq Astronavtika Federasiyasının icraçı direktorunu qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Beynəlxalq Astronavtika Federasiyasının icraçı direktoru Kristian Faythingeri qəbul edib.***

AZƏRTAC xəbər verir ki, Beynəlxalq Astronavtika Federasiyasının icraçı direktoru Kristian Faythinger dövlətimizin başçısına onu qəbul etdiyinə görə minnətdarlığını bildirdi. Kristian Faythinger ölkəmizə ilk dəfə səfərindən məmnunluğunu ifadə edərək, Bakıda gördüyü inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını dedi. Rəhbərlik etdiyi təşkilatın fəaliyyəti barədə məlumat verən Kristian Faythinger bildirdi ki, bu gün Beynəlxalq Astronavtika Federasiyasına 68 ölkədən 368, o cümlədən Azərbaycandan olan 3 təşkilat daxildir. Qonaq rəhbərlik etdiyi qurumun hər il Beynəlxalq Astronavtika Konqresini keçirdiyini vurğuladı və belə bir önəmli faktı xatırlayaraq dedi ki, bu cür tədbirlərdən biri 1973-cü ildə Bakıda keçirilib. Daha sonra o, Azərbaycanda kosmik sənayenin uğurla inkişaf etdiyini və bu sahədə ölkəmizin son vaxtlar əldə etdiyi nailiyyətlərin beynəlxalq səviyyədə yüksək qiymətləndirildiyini diqqətə çatdırdı.

Dövlətimizin başçısı 1973-cü ildə ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə Beynəlxalq Astronavtika Federasiyasının Bakıda keçirilən XXIV konqresini məmnunluqla xatırladı və o zaman həmin tədbirin beynəlxalq əhəmiyyətli bir hadisəyə çevrildiyini, konqresdə məşhur kosmonavtların və astronavtların iştirak etdiyini vurğuladı. Azərbaycanda kosmik sənayenin inkişafına toxunan Prezident İlham Əliyev bu sahənin ölkədə ən prioritet istiqamətlərdən biri olduğunu dedi və Azərbaycanın dünya kosmik ailəsinə daxil olmasını məmnunluqla qeyd etdi.

Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

## V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu mayda keçiriləcək



Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin sərəncamı ilə Bakıda V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçirilməsinə dair Tədbirlər Planı təsdiq edilib. SİA xəbər verir ki, sərəncamda Tədbirlər Planında nəzərdə tutulan işlərin yerinə yetirilməsi üçün müvafiq qurumlara tapşırıqlar verilib. Qeyd edək ki, V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu bu il mayın 2-3-də keçiriləcək.

## Bolqarıstanın Baş naziri Bakıya gələcək



Bolqarıstanın Baş naziri Boyko Borisov mart ayında Bakıya gələcək. məlumatına görə, o, martın 14-16-da Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçiriləcək VII Qlobal Bakı forumunda iştirak edəcək.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzindən SİA-ya verilən məlumata görə, Boyko Borisov Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin ötən il Nyu Yorkda keçirilən keçirilən toplantısında da iştirak edib. Nizami Gəncəvi Beynəlxlalq Mərkəzinin Bolqarıstanın siyasi elitasının bir sıra nüfuzlu nümayəndəlri ilə yaxş əlaqələri var. Bolqarıstanın üç sabiq prezidenti - Petar Stoyanov, Geroge Pervanov və Roşen Pnevneliyev Mərkəzin üzvləridir.

## Rəsmi xronika

Prezident İlham Əliyev Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin fəaliyyətinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikasının şəhər və rayonlarında çoxmənzilli binaların dam örtüklərinin təmiri ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Seyid Şuşinskinin 130 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Malayziyanın XVI Ali Başçısı əl-Sultan Abdullah Riayatuddin əl-Mustafa Billah Şah ibni Sultan Hacı Əhməd Şah əl-Mustain Billaha təbrik məktubu ünvanlayıb. Prezidentin Mətbuat Xidmətindən Trend-ə verilən məlumata görə, təbrikdə deyilir: "Əlahəzrət, Malayziyanın XVI Ali Başçısı seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Malayziya arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq zəminində inkişaf edəcək və genişlənəcəkdir. Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Malayziya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram".

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 may tarixli 920 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 1368 nömrəli 2001-ci il 12 sentyabr tarixli, 1373 nömrəli 2001-ci il 28 sentyabr tarixli və 1377 nömrəli 2001-ci il 12 noyabr tarixli qətnamələrinin yerinə yetirilməsinin təmin edilməsinə dair tədbirlər planı"nda, 2007-ci il 28 iyun tarixli 2271 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqram (2007-2012-ci illər)"ında və 2013-cü il 24 iyun tarixli 2966 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı"nda dəyişiklik edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 1880 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"nda, 2011-ci il 27 dekabr tarixli 1938 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nda, 2014-cü il 24 iyul tarixli 667 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2014-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nda və "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2017-2019-cu illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında" 2016-cı il 18 noyabr tarixli 2451 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

# Azərbaycan Prezidentinin hər bəyanatı Ermənistanı təlaşlandırır

***Prezident İlham Əliyevin xarici siyasət kursu Azərbaycanı qlobal iqtisadi, siyasi və logistik mərkəzə çevirib. Dövlət başçısının "hücum diplomatiyası" strategiyası son illərdə özünün bəhrəsini verməkdədir. Bu uğurlar həm Azərbaycanın ayrı-ayrı dövlətlərlə ikitərəfli əlaqələrinin inkişafında, həm də nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq müstəvisində özünü göstərir.***



Xüsusi ilə, Azərbaycanın xarici siyasət kursunun ana xəttini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli və beynəlxalq hüquq çərçivəsində həlli istiqamətində konkret nəticənin əldə edilməsi və Ermənistan tərəfindən işğal edilmiş ərazilərin azad edilməsi təşkil edir. Son bir neçə ildə beynəlxalq müstəvidə bu sahədə ciddi uğurların əldə edilməsini siyasi ekspertlər Azərbaycanın xarici siyasətdə mühüm nailiyyətləri kimi qiymətləndirirlər.

Xüsusilə, son 15 ildə müstəqil dövlətin əsaslarının möhkəmliyi və həyata keçirilən strategiyanın səmərəliliyi, məhz Azərbaycan Prezidentinin liderlik keyfiyyətləri, siyasi iradəsi və uzaqgörənliyi sayəsində reallaşıb. Siyasi ekspertlər son bir ildə baş verən hadisələr fonunda Azərbaycanın xarici siyasətdə ciddi uğurlar əldə etdiyini təsdiqləyirlər. Bu isə, bir daha Azərbaycanın güclü və qüdrətli olduğunu göstərir.

Ən maraqlı məqam isə, Azərbaycan Prezidentinin hər dəfə səsləndirdiyi bəyanatının Ermənistanı təlaşlandırmasıdır. Elə bu günlərdə Prezident İlham Əliyevin şəhid ailələri ilə keçirdiyi görüş zamanı səsləndirdiyi "Azərbaycan öz ərazilərinin işğalı ilə heç vaxt barışmayacaq və Azərbaycan döyüş meydanında öz gücünü göstərib" bəyanatı Ermənistan xarici işlər naziri Z.Mnatsakanyanı narahat edib.

Çünki Ermənistan anlayır ki, Azərbaycan rəhbərliyinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı prinsipial və ardıcıl mövqeyi bu gün artıq sözügedən konfliktlə əlaqədar regionda tamam yeni bir vəziyyətin yaranmasına gətirib çıxarmaqdadır.

## *<u>İlham Əliyev:</u> "Azərbaycan öz ərazilərinin işğalı ilə heç vaxt barışmayacaq və Azərbaycan döyüş meydanında öz gücünü göstərib"*

## Ermənistanın işğalçı siyasəti ifşa edilməkdədir

Artıq bu, bir real faktordur ki, Azərbaycanın həyata keçirdiyi hücum diplomatiyası nəticəsində, Ermənistanın işğalçı siyasətinin ifşa edilməsi reallaşıb. Buna paralel olaraq, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində də ciddi nəticələr əldə olunub. Beləliklə, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı bölgədə yeni reallığın yaranması üzə çıxıb.

Eyni zamanda, Azərbaycanın qonşu ölkələrlə yüksək səviyyəli əməkdaşlığı da bu prosesdə mühüm rol oynayıb. Xüsusən də, Rusiya və İranla isti münasibətləri həmin ölkələrin Qarabağ münaqişəsinə baxışını dəyişdirib. Xatırladaq ki, Azərbaycan qlobal güclərin yürütdüyü təzyiq və təcrid siyasətinə qoşulmayaraq, İran və Rusiya ilə qarşılıqlı maraqlara cavab verən əməkdaşlıq əlaqələrini, dostluq və mehriban qonşuluq siyasətini daha da gücləndirməkdədir.

Burada təkcə bir faktı qeyd etmək kifayətdir ki, Azərbaycan və Rusiya prezidentləri 2018-ci ildə 6 dəfə görüşüblər, ölkə rəhbərləri arasında mövcud olan şəxsi dostluq münasibətləri dövlətlər arasında bütün istiqamətlər üzrə əlaqələrin inkişafına olduqca mühüm təsir göstərir.

Beynəlxalq Avrasiya Hərəkatının lideri Aleksandr Duqin bu xüsusda bildirir: "Prezident Vladimir Putin Prezident İlham Əliyevlə şəxsi əlaqələrini daha da möhkəmləndirir. Biz İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycanla münasibətlərdə ciddi yanaşma və məsuliyyət görürük. Putinlə dostluğun sirri təkcə simpatiyada deyil, həm də etibarlılıq və öz hərəkətlərindəki ardıcıllıqdadır. Rusiya İlham Əliyevin sözlərində və əməllərində dostluğun rəhnini görür. Ermənistanın baş naziri Nikol Paşinyanın söylədikləri, əməllərinə uyğun olmadıqda isə, bunun nəticələri, avtomatik olaraq, Rusiya və Ermənistan münasibətlərinin bütün strukturuna təsir edir. Yəni xalqlar arasında münasibətlərlə siyasəti qarışıq salmaq olmaz. Siyasət xalqlar arasında münasibətlərlə üst-üstə düşdükdə, bunun çox böyük səmərəsi olur. Hazırda biz bunu Azərbaycanla münasibətlərdə müşahidə edirik: xalqlarımız dostluq edir, prezidentlər dostdurlar və bütün bunlar Azərbaycanın Cənubi Qafqazda mövqeyinin güclənməsinə, həmçinin, Rusiyanın mövqeyinin möhkəmlənməsinə şərait yaradır".

Ümumiyyətlə, real vəziyyəti təhlil edən ekspertlərin, demək olar, hamısının mövqeyi bundan ibarətdir ki, Ermənistanın bir dövlət olaraq, mövcudluğu və gələcəyi Dağlıq Qarabağ amilindən asılıdır. Azərbaycan torpaqlarını işğal altında saxlayıb, qonşu dövlətlərə ərazi iddiası irəli sürmək isə, erməni dövlətinin gələcəyini təhlükə altına alır. Bu baxımdan, Ermənistanda vəziyyətin düzəlməsinin əsas şərtlərindən biri və ən başlıcası, Yerevanın öz qoşunlarını Azərbaycanın işğal olunmuş torpaqlarından çıxarmasıdır. Çünki bu dövlətin gələcəyi Azərbaycanla qonşuluq prinsiplərinə əməl etməkdən keçir.

## Savadsız rəhbərin uğursuz siyasəti Ermənistanı uçuruma aparır

Bu gün işğalçı Ermənistanın sosial-iqtisadi cəhətdən vəziyyətinin daha da pisləşdiyi, ölkədə tənəzzül prosesinin durmadan genişləndiyi müşahidə olunur. Ölkənin iqtisadi cəhətdən xaricdən asılı olması isə yaşanan problemlərin daha da dərinləşməsinə gətirib çıxarır. Bir sözlə, acınacaqlı siyasi situasiya ilə üzləşən Nikol Paşinyan, necə deyərlər, Ermənistanı iflasdan-iflasa sürükləməkdədir. Bu faktdır ki, Ermənistanın heç bir sərvəti olmayan, qonşu ölkələrlə iqdisadi potensialı olmayan və nədən qazanıb iqdisadiyyat quracağı bəlli deyil. Nə qədər ki, Ermənistan Azərbaycanın işğal altındakı torpaqlarını azad etməyəcək, bir o qədər ağır iqtisadi, siyasi məhrumiyyətlərə və məşəqqətlərə düçar olacaq. Bunu dərk etmək çətin olmasa da, N.Paşinyan anlamaq istəmir. Çünki müstəqil deyil, böyük güclərin və erməni lobbisinin əlində oyuncaqdır. Qondarma gedişlər etməklə itirməkdə olan siyasi imicini möhkəmləndirməyə çalışır.

Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri, politoloq Mübariz Əhmədoğlu N.Paşinyanın ağıllı, savadlı və dərin düşüncəli rəhbər olmadığını bildirib. M.Əhmədoğlu onu da bildirdi ki, beynəlxalq məhkəmələrdə ən vacib məsələ Azərbaycan tərəfdən Ermənistanın Dağlıq Qarabağa müdaxiləsini sübut edən arqumentlər və faktlardır: "Mən 10-15 il qabağın faktlarını deyirəm. İndi ən yaxşı sübut və fakt əlimizdədir. N.Paşinyan Ermənistan vətəndaşıdır və baş naziridir. Bir faktı vurğulamaq kifayətdir. Belə ki, Paşinyanın oğlunun Ermənistan vətəndaşı olaraq, Dağlıq Qarabağda xidmət keçməsi o deməkdir ki, Dağlıq Qarabağ müstəqil deyil, amma Yerevan tərəfindən idarə olunur. Bu fakt beynəlxalq hüquq müstəvisində Azərbaycanın mövqeyini xeyli yaxşılaşdırdı. Kəşfiyyatçılarımız nə edəcək və nə iş görəcək, bilmirəm, amma bu arzuolunandır ki, hüquqşünaslarımız, məhz N.Paşinyanın oğlunun Dağlıq Qarabağda xidmət keçməsi və Dağlıq Qarabağın Yerevandan idarə edilməsi faktını beynəlxalq məhkəməyə versin. Bu, çox vacib məsələdir. N.Paşinyan bu hərəkətləri ilə nə qədər qanmaz, savadsız olsa da, o, başa düşür ki, Prezident İlham Əliyevlə görüşməsi onun səviyyəsi deyil".

Beləliklə, bütün bu faktlar onu bir daha təsdiqləyir ki, Prezident İlham Əliyevin həyata keçirdiyi hücum diplomatiyası nəticəsində, işğalçı Ermənistan dalana dirənib.

Belə vəziyyət yalnız Qarabağ konfliktinin həlli fonunda düzələ bilər. Başqa sözlə, Ermənistanın xilası Azərbaycanla əməkdaşlıqdan keçir. Ekspertlər hesab edirlər ki, bunun üçün mütləq işğal olunan Dağlıq Qarabağ regionu və ətraf rayonlar qeyd-şərtsiz azad edilməlidir.

**A.SƏMƏDOVA**

# Azərbaycan Ordusu gənclərinin ümumrespublika toplantısı keçirilib

***Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində 2 fevral - Azərbaycan Gəncləri Günü münasibətilə Azərbaycan Ordusu gənclərinin ümumrespublika toplantısı keçirilib. Müdafiə Nazirliyindən SİA-ya verilən məlumata görə, toplantıda Azərbaycan Prezidenti Administrasiyasının hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov, Müdafiə naziri general-polkovnik Zakir Həsənov, nazirliyin rəhbərliyi, veteranlar, Azərbaycan Ordusunu təmsil edən gənclər, mətbuat və ictimaiyyət nümayəndələri iştirak edib.***







Toplantı iştirakçılarının bir qrupu bir gün əvvəl Fəxri Xiyabana, birinci və ikinci Şəhidlər xiyabanlarına gedərək müstəqil dövlətimizin qurucusu, ulu öndər Heydər Əliyevin abidəsini, eləcə də Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçən qəhrəman Vətən övladlarının məzarlarını ziyarət ediblər. Toplantıdan öncə rəsmi qonaqlar "Heydər Əliyev və Azərbaycan gəncliyi", "Gənclərə qayğı Azərbaycanda dövlət siyasətinin mühüm tərkib hissələrindən biridir" və "Ordu gəncləri böyük qüvvədir" mövzularında foto sərgilərlə tanış olublar.

Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü müstəqil Azərbaycan Respublikası gənclərinin birinci formunun iştirakçısı, polkovnik Abdulla Qurbani qonaqlara sərgilər barədə ətraflı məlumat verib. Aprel zəfərinin qazanılmasında, həmçinin Naxçıvanın Günnüt və digər strateji yüksəkliklərinin azad olunmasında xüsusi xidmətləri olmuş hərbi qulluqçular rəsmi qonaqlara təqdim edilib. Ulu öndər Heydər Əliyevin və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, dövlət himni ifa olunub. Toplantıda dövlət gənclər siyasətinin bu gün respublikamızda geniş vüsət almasından bəhs edən videoçarx nümayiş etdirilib və ümummilli liderimiz Heydər Əliyevin, eləcə də dövlətimizin başçısı İlham Əliyevin gənclərə müraciətləri səsləndirilib.

Cəbhə bölgəsindən gəlmiş, toplantı iştirakçılarının seçimi ilə tədbiri idarə etmək həvalə edilmiş gənc zabit Orxan Rüstəmov qeyd edib ki, bir gün öncə Gənclər Günü münasibətilə keçirilən respublika toplantısında Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin proqram əhəmiyyətli çıxışı hər bir Vətən əsgərinin də döyüş ruhunu, vətənpərvərlik hissini daha da artırıb. Bu toplantıdan bir gün sonra Ordu gənclərinin ümumrespublika toplantısının keçirilməsi heç də təsadüfi deyil. Biz buraya ona görə toplaşmışıq ki, bir daha möhtərəm Prezidentimizə, Vətənimizə, xalqımıza, dövlətimizə öz sədaqətimizi bəyan edək, qoy dostlarımız, eləcə də düşmənlərimiz bilsinlər ki, Azərbaycanın müstəqilliyi əbədidir, sarsılmazdır.

Azərbaycan Respublikası Prezidentinin hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov tədbirdə çıxış edərək hərbçi gənclərimizi Azərbaycan Gəncləri Günü münasibətilə təbrik edib. Prezidentin köməkçisi vurğulayıb ki, Azərbaycan Gəncləri Gününün təsis edilməsi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin təşəbbüsü ilə hələ 1996-cı il fevralın 2-də müstəqil Azərbaycan gənclərinin ilk forumu keçirilib. 1997-ci ildə isə ulu öndər Heydər Əliyev 2 fevral - Azərbaycan Gəncləri Gününün elan edilməsi haqqında Sərəncam imzalayıb.

Gənclərə xüsusi qayğının Azərbaycan Prezidenti İlham Əliyevin də daim diqqət mərkəzində olduğunu qeyd edən Fuad Ələsgərov deyib ki, torpaqları hələ də işğal altında olan Azərbaycan üçün ordu quruculuğu ən vacib məsələlərdən biridir. Bu sahədə görülmüş işlərin nəticəsi olaraq bu gün Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. 2016-cı ilin aprel döyüşləri və 2018-ci ilin mayında aparılmış uğurlu əməliyyat Azərbaycan hərbçilərinin qəhrəmanlığını, Ordumuzun yüksək döyüş qabiliyyətini bir daha nümayiş etdirib.

Toplantıda Əlahiddə Ümumqoşun Ordu, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrini təmsil edən döyüş və ictimai-siyasi hazırlıqda, aprel döyüşlərində və Naxçıvanda Günnüt kəndinin azad edilməsində, on bir min hektar ərazinin nəzarətə götürülməsində müstəsna xidmətləri olan ordu gənclərinin nümayəndələri: "Azərbaycan Bayrağı" ordeni gizir Tahir Misirxanov, "III dərəcəli Vətənə xidmətə görə" ordeni ilə təltif olunmuş Mirdamət Bağıyev, Azərbaycanın Milli Qəhrəmanı, şəhid mayor Rasim İbrahimovun yolunu davam etdirən oğlu, kapitan Nizami İbrahimov, Günnüt uğrunda döyüşlərin fəal iştirakçısı, "İgidliyə görə" medalına layiq görülmüş Ələm Gözəlov, Mərkəzi Ordu İdman Klubunun taqım komandiri, Avropa və Dünya çempionu, Əməkdar idman ustası, "Tərəqqi" medallı leytenant Həsən Əliyev, Azərbaycan hərbi aviasiyasının pilotu kapitan Məzahir Səfərov, Hərbi Dəniz Qüvvələrinin zabiti baş leytenant Ariz Qəhrəmanov, Cəmşid Naxçıvanski adına hərbi liseyin kursantı Tapdıq Mansurov və başqaları çıxış ediblər.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov çıxış edərək 2 fevral - Azərbaycan Gəncləri Günü münasibətilə Azərbaycan Ordusu gənclərini təbrik edib. Nazir qeyd edib ki, bu bayram təkcə hərbçi gənclərin deyil, ümumiyyətlə, bütün Azərbaycan gənclərinin bayramıdır. Ordumuzun döyüş qabiliyyətindən, istənilən döyüş tapşırığını yerinə yetirməyə qadir olmasından söz açan Müdafiə naziri bildirib ki, Azərbaycan Ordusunun potensialının artırılmasının əsasında dövlətimizin və onun rəhbərliyinin göstərdiyi diqqət və qayğı dayanır. Hərbi büdcəmiz ildən-ilə artır, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində müvafiq tədbirlər həyata keçirilir.

Müdafiə naziri bildirib ki, ölkəmizin son illərdə dinamik iqtisadi inkişafı və nəticə etibarilə ordumuzun güclənməsi ölkə başçısının fəaliyyətinin nəticəsidir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində son illərdə ordumuzun döyüş qabiliyyəti daha da yüksəlmiş, maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilmiş, hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılmışdır. Müdafiə naziri deyib: "Azərbaycan Ordusunun hazırkı vəziyyətinə gəlincə, o tam döyüş qabiliyyətlidir.

İstənilən döyüş tapşırığını yerinə yetirməyə hazırdır. Orduda aparılan islahatlar onun əməliyyat, döyüş və mənəvi-psixoloji hazırlığının yüksəlməsinə yeni şərait yaradıb. Ən əsası odur ki, ordunun döyüş qabiliyyətini təyin edən mütəxəssislərin 70 faizi gənclərdir." Sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantı Kənan Əzizov Azərbaycan Ordusu gənclərinin ümumrespublika toplantısının iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə müraciəti toplantı iştirakçılarının diqqətinə çatdırıb.

Müraciətdə deyilir: "Möhtərəm Prezident! Cənab Ali Baş Komandan! Biz, Azərbaycan Ordusu gənclərinin ümumrespublika toplantısı iştirakçıları Sizi salamlayır, Azərbaycan xalqı və dövləti naminə yorulmaz fəaliyyətinizdə daha da böyük müvəffəqiyyətlər arzulayırıq. Müstəqil Azərbaycan Respublikasının iqtisadi, siyasi , mədəni və ordu quruculuğu sahəsində son 15 ildə qazanılan uğur və nailiyyətlərdə, ölkəmizin nüfuzunun dünyada daha da artmasında Sizin gərgin əməyiniz durur, biz ordu gəncləri də bunu görür və yüksək dəyərləndiririk.

Siz hər bir azərbaycanlının Prezidenti olmaqla, ulu öndər Heydər Əliyevin siyasi kursunu layiqincə davam etdirirsiniz. Ümummilli Liderimizin banisi olduğu dövlət gənclər siyasətində möhtərəm Prezidentimizin yeni bir mərhələnin başlanğıcını qoyduğu və gənclərə qayğını dövlət siyasətinin mühüm tərkib hissələrindən birinə çevirdiyi bizi də hədsiz sevindirir. Sizin rəhbərliyinizlə qəbul edilmiş Dövlət Proqramları, Azərbaycan gənclərinin inkişaf strategiyası və digər fərman və sərəncamların verdiyi imkanlardan Azərbaycan Ordusunun əsasını təşkil edən biz gənclər də bəhrələnirik.

Ordumuzun qüdrətlənməsi, hərbi qulluqçuların xidmət şəraitinin daha da yaxşılaşdırılması, sosial problemlərimizin müsbət həlli, şəhid ailələrinə, döyüşlərdə sağlamlığını itirənlərə dünyanın heç bir ölkəsində rast gəlinməyən diqqət və qayğını Siz bizə göstərirsiniz. Bütün bunlara görə Vətən əsgəri Sizə minnətdardır! Möhtərəm Prezident! Müasir mütəşəkkil Ordumuzu yaratmaq ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında ən böyük xidmətlərindən biri olmuşdur. Bu Ordu isə Sizin ölkəni məharətlə idarə etmək, yüksək peşəkarlıq, sərkərdəlik məharətinizlə daha da güclənmiş, qüdrətlənmiş, istənilən döyüş əmrini, hücum əməliyyatı tapşırığını yerinə yetirməyə hər an hazır olan əsl güc strukturuna çevrilmişdir.

Biz Aprel zəfərini, Günnüt zəfərini Sizin rəhbərliyiniz, Ali Baş Komandanlığınız altında qazanmış və Azərbaycanın şanlı hərb tarixinə yazmışıq. 2 fevral Gənclər Günü münasibəti ilə Bakı Konqres Mərkəzində keçirilən Respublika toplantısında Sizin tarixi çıxışınızı biz Ordu gəncləri də diqqətlə izlədik. Yenə də Azərbaycan əsgərinin xidmətlərini yüksək qiymətləndirdiniz. Bizim tarixi qələbəmiz olan Aprel zəfərindən danışarkən qeyd etdiniz ki, Azərbaycan əsgəri, Azərbaycan zabiti Vətən uğrunda, torpaq uğrunda canından keçməyə hazırdır.

Cənab Ali Baş Komandan! Əmin ola bilərsiniz ki, biz həqiqətən Vətən uğrunda, torpaq uğrunda canımızdan keçməyə, işğal altında olan torpaqlarımızı azad etməyə, ərazi bütövlüyümüzü təmin etməyə hər an hazırıq. Hərbi paradlarda cüzi bir hissəsini nümayiş etdirdiyimiz ən müasir hərbi texnikalarımız, zenit-raket komplekslərimiz, artilleriya qurğularımız, aviasiya vasitələrimiz və ilk növbədə Azərbaycan əsgərinin döyüş ruhu, mənəvi-psixoloji hazırlığı, peşəkarlığı, yüksək vətənpərvərlik hissi bunu deməyə imkan verir.

Biz Sizin arzularınızı gerçəkləşdirəcək, rəhbərliyiniz altında işğaldan azad edəcəyimiz digər əzəli torpaqlarımızda da bayrağımızı dalğalandıracaq və həmin bayraqları Azadlıq meydanına gətirərək Qələbə paradında nümayiş etdirəcəyik. Azərbaycan uğrunda hər bir əmrinizə hazırıq, cənab Ali Baş Komandan!

Hörmət və ehtiram hissi ilə, Azərbaycan Ordusu gənclərinin ümumrespublika toplantısı iştirakçıları"

Tədbir Azərbaycan incəsənət ustaları, eləcə də Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin iştirakı ilə baş tutan konsert proqramı ilə davam edib. Azərbaycan Ordusunun gənclərinin ümumrespublika toplantısı Ali Baş Komandana ünvanlanan "Zəfər marşı" ilə sona yetib.

***Nailə Məhərrəmova***

# İsa Həbibbəyli: “Prezident minlərlə şəhid ailəsinə sevinc bəxş etdi”



“Azərbaycan Prezidenti İlham Əliyevin ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı imzaladığı Fərmanı bu kateqoriyadan olan insanlara dövlət qayğısının daha bir nümunəsidir. Həm də, çoxsaylı ailələrə böyük sevinc bəxş etməklə yanaşı, təqdirəlayiq hal kimi qiymətləndirilir”. Bunu “Səs” qəzetinə açıqlamasında, AMEA-nın vitse-prezidenti, akademik, millət vəkili İsa Həbibbəyli Prezident İlham Əliyevin şəhid ailələrinə 11 manat vəsaitin ödənilməsi barədə imzaladığı Fərmana münasibət bildirərkən deyib. Onun sözlərinə görə, müharibə əlilləri, veteranları və şəhid ailələrinə göstərilən qayğı nümunəvi xarakter daşıyır. Müharibə əlilləri, veteranları və şəhid ailələrinin sosial ehtiyaclarının dövlət tərəfindən ödənilməsi, həmçinin, Vətən uğrunda öz canından keçmiş şəhidlərin və Qarabağ müharibəsi əlillərinin övladlarının təhsil haqqından azad edilməsi, onların mənzil və avtomobillərlə təmin olunması dövlət siyasətinin başlıca siyasi xəttidir: “Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, ölkədə həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. 2018-ci ildə keçirilən prezident seçkilərindəki qələbəsindən sonra Prezident İlham Əliyevin imzaladığı ilk Fərmanın da, məhz şəhid ailələrinə şamil edilməsi bunun bariz nümunəsidir. Prezident İlham Əliyevin doğum gününü məcburi köçkünlərlə keçirməsi isə, artıq ənənə halını alıb. Hər il Prezident İlham Əliyev Onun üçün əlamətdar olan gündə məcburi köçkünlər üçün tikilən yaşayış qəsəbələrinin açılışında iştirak edir. Prezident İlham Əliyev məcburi köçkünlərlə səmimi söhbət edərək, onların qayğı və problemləri ilə maraqlanır, onların həlli ilə bağlı yerindəcə müvafiq göstərişlər verir”.

Millət vəkili, onu da bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin vətəndaşlarına göstərdiyi diqqət və qayğı müharibə əlilləri və şəhid ailələri tərəfindən məmnunluqla qarşılanır: “Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin reallaşdırılması, ona istiqamətləndirilib ki, ölkənin dinamik iqtisadi inkişafından əhalinin bütün təbəqələri, ələlxüsus da, xüsusi qayğıya ehtiyacı olan insanlar bəhrələnə bilsinlər.2018-ci ildə bu kateqoriyadan olan ailələrə 3 dəfə çox - 626 mənzil təqdim olunub. İndiyədək bu kateqoriyadan olan vətəndaşlara 6654 mənzil, 6144 avtomobil verilib. Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi zamanı döyüşlərdə fiziki sağlamlığını itirmiş vətəndaşlar, həmçinin, Böyük Vətən müharibəsi əlilləri, hərbi xidməti vəzifəsini yerinə yetirərkən əlil olmuş şəxslərə hərtərəfli diqqət və qayğı göstərlir, onların müalicəsi üçün reabilitasiya mərkəzləri açılır və lazım gələndə isə, müalicə olunmaq üçün xarici ölkələrə göndərilirlər”.

“Ermənistanın işğalçılıq siyasəti nəticəsində, torpaqlarımızın işğal olunduğunu və bir milyondan çox soydaşımızın qaçqın, məcburi köçkün vəziyyətinə düşdüyünü” deyən millət vəkili ölkəmizin minlərlə şəhid verdiyini, on minlərlə insanın yaralandığını, əlil olduğunu bildirib: “Tam əminliklə deymək olar ki, Ali Baş Komandan, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə işğal altındakı torpaqlarımız azad ediləcək və Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq. Bununla da ölkəmizdə qaçqın və məcburi köçkün məsləsinə son qotulacaq. Bu kateqoriyadan olan insanlar öz yurd və yuvalarına qayıdıb, rahat, sakit həyatlarını yaşamaqda davam edəcəklər”.

**R.HÜSEYNOVA**

# Şəhid anası: “Dövlət başçısının şəhidlərə olan münasibətindən məmnunam”



Ölümdən qorxmamaq, onun üstünə getmək hər oğulun işi deyil. Vətənə olan sevgi onu ölümün gözünə dik baxmağa məcbur edirdi. O, azğın düşməni torpağımızdan qovanadək silahı yerə qoymamağa söz vermişdi. AZƏRTAC xəbər verir ki, əslən Balakəndən olan 21 yaşlı döyüşçü Şirinov Əli Rizvan oğlunun keçdiyi döyüş yolunu məhz ölümə doğru aparan yol hesab etmək olar.

Torpağımızın başı üzərini qara buludlar alanda Əli silaha sarılaraq döyüşə atılıb. Üç dəfə yaralanıb, sağlamlığında olan problemlərə görə həkimlər, qohumlar nə qədər cəhd etsələr də, onu cəbhəyə qayıtmaq fikrindən döndərə bilməyiblər. Ağdam rayonunun Qaralar kəndi uğrundakı döyüşdə isə gözləri işıqlı dünyaya əbədi olaraq yumub.

Əlinin anası Zərifə xanım Prezident İlham Əliyevin hərbi qulluqçulara birdəfəlik ödəmələr verilməsi və aylıq sosial müavinətlərin artırılması barədə fərmanları sosial ədalət və humanistlik nümunəsi kimi qiymətləndirib: “Son fərmanlar bir daha nümayiş etdirdi ki, müqəddəs amallar yolunda canını qurban verənlər, Vətən uğrunda şəhid olanlar heç vaxt unudulmurlar. Əlinin fədakarlığı, Vətənə olan sonsuz məhəbbəti əsl örnəkdir. Yaralanandan sonra onu ön cəbhəyə qayıtmaq fikrindən daşındırmaq istəsək, heç olmasa bir müddət istirahət etmək, dincəlmək təklif etsək də, mümkün olmadı. Elə bil o, öz ölümünə, şəhidliyə tələsirdi...

Dövlət başçısının Prezident Sarayındakı çıxışı, şəhidlərimizin ünvanına dediyi sözlər bir ana kimi məni də təsirləndirdi. Bu görüş, Prezidentin şəhid ailələrinə münasibəti bir daha nümayış etdirdi ki, şəhidlər ölmürlər. Onlar zaman-zaman xalqımızın qəlbində yaşayır və yaşayacaqlar. Əli kimi vətənpərvər övlad böyütdüyümə və onun kimi oğullara dövlət başçısının münasibətindən çox məmnunam. Tanrı xalqımıza torpaqların azad olması mübarizəsində kömək olsun, onu qələbəyə çatdırsın!”.

# 3 mindən çox şəxs avtomatlaşdırılmış qaydada pensiya alacaq



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, pensiya təyinatının elektron infrastrukturu qurularaq, cari ilin əvvəlindən ölkəmizdə pensiyaların elektron qaydada təyinatına başlanılıb. ƏƏSMN-dan SİA-ya verilən məlumata görə, yanvar ayında artıq 3 mindən çox şəxsə avtomatlaşdırılmış qaydada pensiya təyin olunub. Pensiya yaşı (kişilər üçün 64 yaş, qadınlar üçün 61 yaş) tamam olduğu gün həmin vətəndaşlara pensiya təyinatı həyata keçirilib. Həmin gün onlara bu barədə (həmçinin pensiyanın məbləği, bank kartını əldə edəcəyi bank filialı və vaxt barədə) “sms”, e-mail və ya rəsmi məktubla məlumat verilib.

Pensiya təyinatının avtomatlaşdırılması bu sahədə vətəndaş-məmur təmasının aradan qalxmasına və şəffaflığın təmin olunmasına imkan verib. Vətəndaşlar pensiya yaşı çatdıqda heç yerə müraciət etmədən və sənəd təqdim olunmadan, nəticədə hər hansı süründürməçilik, bürokratik halla rastlaşmadan onların pensiya hüququ reallaşdırılır.

Xatırladaq ki, 2019-cu ildə pensiya hüququ yaranacaq şəxslərdən 70 faizinə (36 min insan) elektron qaydada pensiya təyin olunacağı proqnozlaşdırılır. Digər 30 faiz şəxslərin sırasına dövlət qulluqçuları, hərbi qulluqçular, xüsusi rütbəli şəxslər, millət vəkilləri və b. daxildir ki, onların da pensiya təyinatının avtomatlaşdırılması istiqamətində işlər aparılır.

# Ermənistanda yüzlərlə alimin işsiz qalacağı gözlənilir



Ermənistanda ali məktəblərdə və elmi-tədqiqat institutlarında işləyən yüzlərlə alimin işsiz qalacağı gözlənilir. Buna etiraz olaraq Yerevanda etiraz aksiyasının keçirilməsi planlaşdırılır.

AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, artıq Yerevan Dövlət Universitetində işləyən yüzlərlə əməkdaş işdən azad olunduqları barədə bildiriş alıblar. Bunu sosial şəbəkələrdə Ermənistanın keçmiş elm və təhsil nazirinin müavini, universitetin əməkdaşı Vaqram Mkrtçyan bəyan edib. Alim öz statusunda yazıb: “Alimlər inqilabın “meyvələrini” dadırlar. Hökumətin 27 dekabr 2018-ci il tarixli qərarından sonra Yerevan Dövlət Universitetinin mən də daxil olmaqla 450 əməkdaşı öz işini itirəcək. Dünən bizə martın 31-dən etibarən işdən azad olunmağımız haqda bildiriş göndərilib”.

Universitetin mətbuat katibi Gevork Emin-Teryan da bu məlumatı təsdiq edib. O deyib: “Hökumət büdcədəki təhsil fondundan maliyyələşən müəssisələrin vəsaitinin baza hissəsinin müsabiqə əsasında ayrılması barədə qərar qəbul edib. Bu sənədə görə, il ərzində keçiriləcək müsabiqələrdə qalib gələ bilməyən universitetlər maliyyə vəsaiti ala bilməyəcək və fəaliyyətini dayandıracaq. Hökumətin qərarı universitetləri sərbəst şəkildə elmi tədqiqatlar aparmaq imkanından məhrum edir. Artıq laboratoriyalarda işləyən əməkdaşların əksəriyyətinin əmək müqavilısinə xitam verilib. Beləliklə, 450 nəfər laboratoriyalarda işləyə bilməyəcək”.

Mətbuat katibi əlavə edib ki, hökumətin bu qərarı qanunvericiliyə - elm və elmi tədqiqatlar haqqında qanuna ziddir. Onun sözlərinə görə, Yerevan Dövlət Universitetində fəaliyyət göstərən 30 elmi-tədqiqat mərkəzi və laboratoriyanın əməkdaşları sözügedən qərarın ləğv olunması üçün baş nazir Paşinyana müraciət ediblər və Yerevanın mərkəzində etiraz aksiyası keçirməyə hazırlaşırlar.

# İstintaq Serj Sarkisyanı sorğu-sual edib

Ermənistan Xüsusi İstintaq Xidməti sabiq prezident Serj Sarkisyanı sorğu-sual edib. SİA Ermənistan KİV-nə istinadən xəbər verir ki, o, 2008-ci il 1 mart hadisələri ilə bağlı 5 saat ifadə verib. “Serj Sarkisyan şahid kimi fevralın 1-də 2008-ci il 1 mart hadisələri ilə bağlı 5 saat ifadə verib. Onun ifadələri yaxın günlərdə alınmaqda davam edəcək”.



# Ermənistan ŞOKDA: Xərçəng xəstələrinin sayı durmadan artır”



Ermənistanın səhiyyə nazirliyi 4 fevral - Beynəlxalq xərçənglə mübarizə günündə ölkədə onkoloji xəstəlik səviyyəsi barədə məlumat dərc edib. SİA Novosti-Armeniya saytına istinadən xəbər verir ki, Ermənistanda bədxassəli şişlər nəticəsində hər il 5,6 min nəfər insan ölür. Ölüm hallarının əsas siyahısında ikinci yeri (20,4%) qan dövranında yaranmış problemlərdən əmələ gəlmiş xərçəng xəstəliyi dayanır.

Səhiyyə nazirliyindən bildirilir ki, son 30 ildə xərçəng səbəbindən baş vermiş ölüm halları 2-3 dəfə artıb. 2018-ci illə olan məlumata görə, Ermənistanda 43,83 min insan nəzarət altındadır, hər il isə, 8,5 min yeni hallar qeydə alınır. “Bədxassəli şişlərin 20-50%-ni xəstəliyin erkən müəyyən edildiyi halda müalicəsi mümkündür. Təəssüf ki, 60% xərçəngə tutulma halları xəstəliyin 3-cü, 4-cü mərhələsində müəyyən olunur ki, bu da müalicənin keyfiyyətli aparılmasını, ömrün uzadılmasını kifayət qədər çətinləşdirir”, deyə ermənilərin səhiyyə nazirliyinin hesabatında bildirilir.

Həmçinin bildirilir ki, bədxassəli şişlərin əmələ gəlməsi, nəticədə baş verən ölüm halları xüsusilə qadınlarda daha çox üzə çıxır ki, bu da süd vəzlərinin, yoğun bağırsağın və qadınlıq xərçəngi olaraq qeydə alınır. Kişilərdə isə, nəfəs yollarının, bronxların, ciyərlərin, sidik kisəsinin, mədənin, prostatın xərçəngi yaranır. Ermənistanın səhiyyə nazirliyi xəbərdarlıq edir ki, xüsusilə son illərdə həm qadınlar, həm də kişilər arasında mədə və yoğun bağırsaq xərçəngi xəstəliyi durmadan artır. Bunun oturaq həyat tərzi keçirmək və düzgün qidalanmamaqdan yarandığı deyilir.

**Rövşən**

# Şamaxı şəhərinin Azərbaycanın "Gənclər Paytaxtı" elan olunması gənclərin fəallığını daha da artıracaq

***Bu gün müstəqil Azərbaycan dövlətinin gəncləri vətənpərvər gənclərdir. Cəmiyyətin aparıcı qüvvəsinə çevrilən gənclər daim axtarışda olan, yeniliyi sevən bir qüvvədir. Ulu Öndər Heydər Əliyev Azərbaycanda müstəqillik dövründə gənclər siyasətinə önəm verərək, onların təşkilatlanmasına xüsusi diqqət ayırıb.***

Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünün qorunması, ölkədə hüquqi-demokratik dövlət quruculuğu prosesində gənclərin rolunun müstəsnalığı nəzərə alınaraq, vahid gənclər siyasəti hazırlanıb, həyata keçirildi. Ümummilli Lider Heydər Əliyev gənclərin dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsini vacib məsələlərdən biri kimi elan etdi. Ulu Öndər Heydər Əliyev hər zaman "Gənclər bizim gələcəyimizdir" ifadəsini xüsusi vurğu ilə səsləndirərək, gənc nəsli ictimai-siyasi həyatda fəal iştirak etməyə həvəsləndirir, dövlət siyasətinin həyata keçirilməsində gənclərə xüsusi önəm verirdi. Azərbaycanda fevral ayının 2-nin Gənclər Günü kimi qeyd edilməsi də Heydər Əliyevin adı ilə bağlıdır.

Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması, müstəqil Azərbaycan gənclərinin ilk Ümumrespublika Forumunun keçirilməsi, dövlət proqramlarının qəbulu, "Dövlət-gənclər siyasəti haqqında" Fərman və geniş Fəaliyyət Proqramının təsdiq edilməsi Ulu Öndər Heydər Əliyevin gənclərə böyük qayğısı idi. 1997-ci ildə 2 fevralın Azərbaycan Gəncləri Günü elan edilməsi Ulu Öndər Heydər Əliyevin gənclərə böyük qayğısının sübutu idi. Bütün bunlar gənclərin respublikanın ictimai-siyasi həyatında daha fəal iştirakına şərait yaradıb. Bu gün ölkəmizdə Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev Ulu Öndər Heydər Əliyevin gənclər siyasətinə sadiqliyini öz qərarları ilə təsdiq edir. Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizin qüdrətli dövlətə çevrilməsi naminə gənclərə böyük inam bəsləyir, ölkəmizdə onlara yüksək şərait yaradılması istiqamətində dövlət proqramları qəbul edilir.

Hər bir dövlətin əsas missiyası gələcəyini etibar edəcəyi nəsil formalaşdırmaqdır. Prezident İlham Əliyevin sərnəcamları ilə təsdiq olunan dövlət proqramları gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, dövlət idarəçiliyi sistemində iştirakının gerçəkləşdirilməsində əhəmiyyətli rol oynadı.

Dövlət başçısı tərəfindən gənclərə hər zaman diqqət və qayğı ilə yanaşılır. Gənclər Günündə "2019-cu il gənclər üçün Prezident Mükafatlarının verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı da dövlət-gənclər siyasətinin davamıdır. Sərəncama əsasən, mədəniyyət, elm, təhsil və ictimai fəaliyyət sahələrində xüsusi fərqlənən bir neçə şəxsə 2019-cu il gənclər üçün Prezident Mükafatları veriləcək. 2 Fevral Azərbaycan Gənclər Günü münasibəti ilə dövlət-gənclər siyasətinin həyata keçirilməsində, gənclər hərəkatının formalaşmasında səmərəli fəaliyyətinə görə isə, bir neçə şəxs dövlət başçısının Sərəncamı ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə, "Tərəqqi" medalı ilə, "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif olunublar.

Gənclərə ayrılan daha bir diqqətdir ki, bu gün Şamaxı şəhəri 2019-cu ildə Azərbaycanın "Gənclər paytaxtı" elan edilib. Bu, 2 fevral -Azərbaycan Gənclər Günü münasibətilə keçirilən tədbirdə elan olunub. Şamaxı şəhəri onlayn səsvermə yolu ilə "Gənclər paytaxtı" seçilib. "Gənclər paytaxtı"nın simvolik açarı Şamaxı şəhər icra hakimiyyətinin nümayəndəsinə təqdim olunub.




Xatırladaq ki, 2018-ci ilin "Gənclər paytaxtı" Naxçıvan şəhəri idi. Azərbaycanın "Gənclər Paytaxtı"nın seçilməsi "Azərbaycan gəncliyi 2016-2020-ci illərdə" Dövlət Proqramına müvafiq olaraq, səsvermə yolu ilə həyata keçirilir. Məlumat üçün bildirək ki, "Gənclər Paytaxtı" 1 il müddətinə seçilir. Bu müddət ərzində, həmin şəhər (rayon) gənclərin ictimai, siyasi, sosial, iqtisadi və mədəni həyatda fəal iştirakını təmin edir, onların intellektual və yaradıcılıq potensialının artırılması yeni ideya və layihələrinin həyata keçirilməsinə dəstək verir. Gənclərə göstərilən diqqət, qayğı və etimadın bariz nümunəsidir ki, 2019-cu il üçün Şamaxı şəhəri Azərbaycanın "Gənclər Paytaxtı" elan olunub. Şamaxıda cəmiyyətimizin aparıcı qüvvəsinə çevrilən, ictimai həyatımızda öz fəallıqları ilə tanınan gənclərimiz çoxdur. Bu, bütövlükdə, Azərbaycan dövlətinin gənclərin ictimai-siyasi fəallıqlarına, müxtəlif sahələrdə qazandıqları əhəmiyyətli uğurlara verdiyi yüksək qiymətdir. Azərbaycan gəncləri bundan sonra da gördüyü işlərlə, qazandığı yeni-yeni nailiyyətlərlə ölkəmizin daha da inkişaf etdirilməsinə öz töhfələrini verəcəklər.

***Nəzakət ƏLƏDDİNQIZI***

# İtaliya mətbuatında Azərbaycandakı tolerantlıqla bağlı reportaj yayılıb




İtaliyanın "Askanews" xəbər saytında Azərbaycandakı tolerantlıqdan bəhs edən reportaj yayılıb. AZƏRTAC xəbər verir ki, videoreportajda Bakıda fəaliyyət göstərən dini konfessiyaların təmsilçilərindən müsahibələr də yer alıb.

Qeyd edilir ki, Azərbaycanda müxtəlif dinlərin nümayəndələri tolerantlıq şəraitində heç bir problemlə üzləşmədən yaşayırlar.

Reportajda Bakı Dağ Yəhudiləri dini icmasının rəhbəri Melih Yevdayevin Azərbaycanda müxtəlif dini konfessiyalara mənsub dini icmaların öz dini ayinlərini sərbəst şəkildə yerinə yetirmələri, ümumiyyətlə, tolerantlığın təşviqi istiqamətində görülən işlərlə bağlı fikirləri əksini tapıb. O deyib ki, bir çox ölkələrdən fərqli olaraq Azərbaycanda heç vaxt antisemitizmə rast gəlinməyib. Reportajda Bakıdakı Heydər məscidində vəhdət namazının qılınması barədə də söhbət açılır.

# Özbəkistanın portalı: Dağlıq Qarabağ münaqişəsi davam etdikcə Ermənistan iqtisadiyyatı itirəcək




Özbəkistanın tnews.uz portalı "Berlin Economics" şirkətinin tədqiqatları əsasında rus dilində "Dağlıq Qarabağ münaqişəsi davam etdikcə Ermənistan iqtisadiyyatı nələri itirəcək" sərlövhəli məqalə yayıb.

AZƏRTAC xəbər verir ki, məqalədə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tam tənzimlənməsinin Ermənistana iqtisadi, sosial və digər sahələrdə gətirəcəyi faydalardan bəhs edilir. Qeyd olunur ki, münaqişə ilə əlaqədar Ermənistana sərmayə qoymaq istəyən şirkətlərin sayı çox azdır. Əgər münaqişə həll olunsa, Ermənistana investisiya qoyuluşu da artar. Həmçinin Ermənistanın Türkiyə ilə ticarət əlaqələri də qaydaya düşər.

Məqalədə Ermənistanın Azərbaycan ərazilərinin 20 faizini işğal etməsi barədə ətraflı məlumat verilir. Münaqişə nəticəsində ölənlər, yaralananlar, dağıdılan abidələr, muzeylər haqqında söhbət açılır.

# UNEC-in növbəti beynəlxalq uğuru




Avstraliyada yerləşən UniRank reytinq təşkilatı 2019-cu ilin yanvar ayında dünya universitetlərinin reytinqini açıqlayıb. UniRank reytinq təşkilatının 200-dən artıq ölkədə rəsmi qeydiyyatdan keçmiş 13.600 ali təhsil müəssisəsinin analizi nəticəsində aparılan reytinq sıralamasında UNEC dünya üzrə 610-cu yerə çıxaraq Azərbaycan universitetləri arasında 2019-cu ildə də liderdir. UniRank reytinq agentliyinin regional reytinq sıralaması olan "Asiyanın 200 ən yaxşı universiteti" sıralamasında UNEC Asiyanın 122-ci ən yaxşı universiteti seçilib. UNEC Yaponiyanın (Kobe Universiteti), Çinin (Şanxay Maliyyə və İqtisad Universiteti), Türkiyənin (Boğaziçi Universiteti, Ankara Universiteti) və regionun bir sıra məşhur universitetlərini qabaqlayıb.

uniRank haqqında: 2005-ci ilin may ayından etibarən ildə iki dəfə nəşr olunan uniRank dünya üzrə akkreditasiya olunan ali təhsil müəssisələrinin veb populyarlığı üzrə təhlilini ehtiva edən beynəlxalq ali təhsil direktoriyası və axtarış sistemidir. Reytinq dünya üzrə 13600 universitet və kolleci əhatə edir. Reytinq 4 veb mənbədən alınan 5 müstəqil veb ölçmələrə əsaslanan alqoritm üzrə aparılır. uniRank-in ölçü komponentlərini Moz Domain Authority, Alexa Global Rank, SimilarWeb Global Rank, Majestic Reffering Domains və Majestic Trust Flow təşkil edir.

# Milli Məclisin müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin iclası keçirilib

Fevralın 4-də Milli Məclisin müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin iclası keçirilib. AZƏRTAC xəbər verir ki, Milli Məclis sədrinin birinci müavini, komitənin sədri Ziyafət Əsgərov gündəlikdəki məsələlər barədə məlumat verib. Bildirilib ki, gündəliyə 5 məsələ daxildir.

Ziyafət Əsgərov xatırladıb ki, 2018-ci ilin avqustunda Xəzəryanı ölkələr arasında Xəzər dənizinin statusu ilə bağlı böyük tarixi əhəmiyyətə malik olan Konvensiya imzalanıb. Bununla əlaqədar iyirmi ildən çox danışıqlar gedib, işlər görülüb. Bu, bizim üçün tarixi qələbədir. Bu, Azərbaycan Prezidenti İlham Əliyevin xarici siyasətinin qələbəsidir.

Qeyd edilib ki, "2010-cu il 18 noyabr tarixli "Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında" Sazişə Xəzər dənizində mütəşəkkil cinayətkarlıqla mübarizədə əməkdaşlıq üzrə" Protokolun təsdiq edilməsi haqqında", "2010-cu il 18 noyabr tarixli "Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında" Sazişə Xəzər dənizində terrorçuluqla mübarizədə əməkdaşlıq üzrə" Protokolun təsdiq edilməsi haqqında", "2010-cu il 18 noyabr tarixli "Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında" Sazişə Sərhəd orqanları arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət üzrə" Protokolun təsdiq edilməsi haqqında" və "Xəzər dənizində insidentlərin qarşısının alınması haqqında" Sazişin təsdiq edilməsi barədə" qanun layihələri Azərbaycanın milli maraqlarına cavab verir və Konvensiyanın imzalanmasından sonra Xəzərin statusundan irəli gələn məsələləri özündə əks etdirir.



"Hərbi vəzifə və hərbi xidmət haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" qanunlarda, Cəzaların İcrası və İnzibati Xətalar məcəllələrində dəyişiklik edilməsi barədə qanun layihəsini birinci oxunuşda təqdim edən Z.Əsgərov bildirib ki, təklif olunan dəyişikliklər redaktə xarakterlidir. Komitə üzvləri təklif olunan dəyişikliklərlə bağlı fikir mübadiləsi aparıblar.

# Azadlıq eşqimiz olan Azərbaycan bayrağı

***Müasir dünyada müstəqil Azərbaycan dövlətinin rəmzləri onun dövlətçilik əlaməti olmaqla yanaşı, ölkənin tarixi keçmişindən gələn və gələcəyə istiqamətlənən özünəməxsusluğunu əks etdirir. Azərbaycan Respublikasının Konstitusiyasında qeyd olunduğu kimi, "Azərbaycan Respublikasının dövlət rəmzləri - Azərbaycan Respublikasının Dövlət Bayrağı, Azərbaycan Respublikasının Dövlət Gerbi və Azərbaycan Respublikasının Dövlət Himnidir".***




Azərbaycan Respublikasının dövlətçilik rəmzləri sırasında yer alan Dövlət Bayrağı siyasi-ideoloji və mənəvi baxımdan əhəmiyyətlidir. Göy, qırmızı, yaşıl rənglərdən, ağ aypara və səkkizguşəli ulduzdan ibarət üçrəngli bayraq Azərbaycan dövlətinin suverenliyinin rəmzidir.

Azərbaycan Respublikasının rəsmi simvollarından biri olan Azərbaycan bayrağı tarixin bu günü - 5 fevral 1991-ci ildə Azərbaycan Respublikasının Ali Soveti tərəfindən təsdiq edilmişdir. Bayrağımızda olan hər bir rəng Azərbaycan xalqına məxsus dəyərləri özündə ehtiva edir. Göy rəng Azərbaycan xalqının türk mənşəli olmasını göstərir, türkçülük ideyası ilə bağlıdır. Qırmızı rəng müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək, bir sözlə, müasirləşməni və inkişaf istəyini ifadə edir. Yaşıl rəng isə islam sivilizasiyasına və islam dininə mənsubluğun göstəricisidir. Deməli, bayrağımız üzərindəki hər bir rəng Azərbaycan tarixindən danışır. Bayrağımız qürur mənbəyimizdir və and yerimizdir. Müqəddəs varlıq kimi üçrəngli bayrağımıza and içirik. Bu gün hər bir vətəndaşın üzərində ciddi mənəvi məsuliyyət var. Hər bir vətəndaş bu yükü öz çiyinlərində hiss etdikcə, onun dövlətçilik idealları püxtələşir. O, şəxsi həyatındakı irəliləyişləri belə öz dövlətinin milli inkişafından ayrılmaz şəkildə dərk edir. Azərbaycan xalqının türk milli mədəniyyətinin, müsəlman sivilizasiyasının və müasir Avropa demokratik əsaslarının simvoluna çevrilən, azadlıq eşqimiz olan üçrəngli bayrağımız bu gün göylərə yüksəlib. Ölkəmizdə qürurverici bir haldır ki, Dövlət Bayrağı Günü qeyd olunur. Azərbaycan Prezidenti İlham Əliyevin 17 noyabr 2009-cu il Sərəncamı ilə Dövlət Bayrağı Günü ölkəmizdə 9 noyabr tarixində qeyd olunmağa başladı. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan Dövlət Bayrağı 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin iclasında qəbul edilib. 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsi və Sovet hakimiyyətinin qurulması ilə üçrəngli bayrağımızın yüksəklikdə dalğalanmasına sədd qoyulsa da, bu, xalqın təfəkküründə dərin iz salmışdır. Hər kəs bu böyük amalla Azərbaycan bayrağının vətən torpağında dalğalanması arzusu ilə yaşamışdı. İllər uzunu müstəqilliyə doğru gələn yolda Azərbaycan Respublikasının üçrəngli bayrağı ikinci dəfə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sessiyasında Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə qaldırılıb. Ulu Öndər Heydər Əliyev deyirdi: "Gərək hər bir evdə Azərbaycan bayrağı olsun, hər bir ailə Azərbaycan bayrağına itaət etsin. Bu bayraq gərək hər bir ailənin həyatının əziz bir hissəsi olsun".

Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra Dövlət Bayrağı milli suverenliyin simvolu və rəmzi kimi təsdiq olunub, Azərbaycan Respublikasının Dövlət Bayrağı haqqında çoxsaylı normativ aktlar qəbul edilib. Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev dövlət rəmzlərinə böyük diqqət göstərir. Belə ki, Azərbaycan Respublikasının 2004-cü il 8 iyun tarixli Qanunu ilə Azərbaycan Respublikası Dövlət Bayrağının istifadəsi qaydaları müəyyənləşdirilib. Bu qanunla Dövlət Bayrağının qaldırılmalı və yerləşdirilməli olduğu yerlər müəyyən edilmişdir. Ən yüksək zirvələrdə dalğalanan üçrəngli bayrağımız Azərbaycan dövlətinin gücünü və xalqımızın milli birliyini nümayiş etdirir. "Bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir" deyən Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bu gün Azərbaycanın hər bir yerində dalğalanan Dövlət Bayrağının Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra işğal altında olan torpaqlarda qaldırılacağına əminliyini bildirib: "Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq".

Bu gün Azərbaycan Ordusunun sahib olduğu güc də Onun bayrağımıza olan dərin məhəbbətindən və sədaqətindən qaynaqlanır. Azərbaycan əsgəri vətənimizin suverenliyinin və ərazi bütövlüyünün qorunması ilə bağlı şərəfli əsgəri vəzifəsini yerinə yetirməyə başlayarkən, müqəddəs bayrağımıza and içir. Vətən torpağının bütövlüyü uğrunda şəhidliyə hazır olan Azərbaycan əsgəri o bayrağa sarılaraq şərəfli mübarizəyə qoşulur, vətənin azadlığı uğrunda övladını qurban vermiş valideynlər şəhid cənazəsinə bükülmüş müqəddəs bayraqla təskinlik tapırlar. Budur bayrağın müqəddəsliyi və bayrağımıza olan sevgi.

Müasir dövrümüzdə Dövlət Bayrağımız dünyanın müxtəlif ölkələrində dalğalanır. Respublikamızın dövlət qurumlarının və diplomatik nümayəndəliklərinin binaları üzərində ucalır. Mötəbər mərasimlərdə və yarışlarda Azərbaycan Bayrağının dalğalanması hər kəsdə qürur doğurur.

**Nəzakət ƏLƏDDİNQIZI**

# "Münaqişənin törətdiyi ağır nəticələr hamıya məlumdur"

***"Ermənistan-Azərbaycan münaqişəsinin regionumuz üçün törətdiyi ağır nəticələr hamıya məlumdur.*** İlk olaraq bunu, Ermənistanın həyata keçirdiyi təcavüz və işğal siyasəti nəticəsində öz doğma torpaqlarından didərgin salınmış azərbaycanlı məcburi köçkünlər, o cümlədən Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı icmasının üzvləri daha yaxından hiss edirlər. Biz inanırıq ki, Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsilə regionda nəinki hərbi və siyasi təhlükəsizlik və stabillik bərpa olunardı, habelə regionun iqtisadi, humanitar və digər sahələrdə inkişafı istiqamətində daha böyük uğurlar əldə edilə bilər". Bunu SİA-ya açıqlamasında Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı İcmasının rəhbəri Tural Gəncəliyev deyib.



Onun sözlərinə görə, bu müstəvidə, 2019-cu ilin yanvar ayında Brüsseldə aparılmış "Dağlıq Qarabağ münaqişəsinin həllinin Ermənistana və Azərbaycana iqtisadi təsiri" adlı araşdırmanın təqdimatı diqqətimizi cəlb edib: "Sözügedən araşdırma mənzil-qərargahı Berlin şəhərində yerləşən "BE Berlin Economics GmbH" konsaltinq şirkəti tərəfindən Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanıb.

Araşdırmada vurğulanır ki, münaqişənin tam tənzimlənməsi sərhədlərin açılması, ticarətin yenidən bərpası, əməkdaşlıq potensialı, qaçqınlar və məcburi köçkünlərlə bağlı bütün məsələlərin həlli vasitəsilə Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşmasına gətirib çıxaracaq. Xülasədə qeyd edilir ki, "Dağlıq Qarabağ münaqişəsinin həlli böyük iqtisadi faydalar gətirəcək və bu hər iki ölkənin iqtisadi marağındadır. Münaqişənin həllindən 10 il sonra hər iki ölkə daha yüksək inkişaf yolunda olacaq, eləcə də yaşayış standartları nəzərəçarpacaq dərəcədə təkmilləşəcək. Bu xüsusda, sülhün iqtisadi faydaları Dağlıq-Qarabağ münaqişəsinin daimi həllinin tapılmasının lehinə güclü dəlildir".

Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı icması olaraq, biz də bu məntiqə şərik çıxdığımızı və məhz belə yanaşmanı dəstəklədiyimizi bildirmək istərdik. Münaqişənin həlli nəticəsində Ermənistan əhalisi regionda yaranacaq əməkdaşlıq imkanlarından faydalanmaq imkanları əldə edəcək. Azərbaycan tərəfi bunu dəfələrlə bəyan edib.

Regionda sülhün bərqərar olmasının gələcək üçün önəmli olduğuna diqqəti çəkərək, biz münaqişənin həlli prosesində maraqlı tərəf olaraq Dağlıq Qarabağın erməni icması ilə konstruktiv dialoq aparmağa və təmas qurmağa hazır olduğumuzu və müxtəlif müstəvilərdə, o cümlədən iqtisadi və humanitar əlaqələrin bərpa olunmasına öz töhfəmizi verməyə hazırıq. Şübhəsiz ki, bunun üçün münaqişənin ədalətli həlli prosesi çərçivəsində Ermənistan qoşunları Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmalı, məcburi köçkünlərin, o cümlədən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı əhalisinin öz doğma torpaqlarına - Dağlıq Qarabağa təhlükəsiz və ləyaqətli şəkildə qayıtması, mülkiyyət hüquqlarından istifadə olunması təmin olunmalıdır. Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının üzvləri Dağlıq Qarabağın azərbaycanlı və erməni icmalarının ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri, suverenliyi və ərazi bütövlüyü çərçivəsində yenidən sülh şəraitində birgə yaşamağa qadir olduqlarına inanır".

## Qafqazşünaslar Bakıda toplaşacaqlar

Azərbaycan Milli Elmlər Akademiyası Qafqazşünaslıq İnstitutunun təşkilatçılığı ilə mayın 23-24-də Bakıda Qafqazşünasların II Beynəlxalq Forumu keçiriləcək. İnstitutdan AZƏRTAC-a bildirilib ki, forumda "Qafqaz regionunda ictimai-siyasi proseslər", "Qafqazda münaqişələr və terror", "Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü", "Qafqaz ölkələrinin qarşılıqlı münasibətləri, xarici siyasəti və böyük dövlətlərin region siyasəti", "Qafqazda geosiyasi şərait", "Qafqazda sivilizasiyaların və mədəniyyətlərin qarşılıqlı əlaqəsi" mövzularında müzakirələr aparılacaq.

Forum AMEA-nın Mərkəzi Elmi Kitabxanasında (MEK) keçiriləcək. Beynəlxalq foruma iştirak etmək istəyənlər məruzələrini aprelin 10-dək təşkilat komitəsinə təqdim etməlidir. Məruzə mətnlərinin hazırlanması və göndərilməsi qaydaları ilə Qafqazşünaslıq İnstitutunun saytında tanış olmaq mümkündür.

## "Paşinyan peşəkar siyasətçi deyil"

***"Əvvəla, Ermənistanın baş naziri Nikol Paşinyan peşəkar siyasətçi deyil. İkincisi, Paşinyanı hakimiyyətə Qərb gətirib. Məhz buna görə də Paşinyan Qərbə uyğun olaraq bəyanatlar vermək məcburiyyətindədir. Üçüncüsü, bu adam kifayət qədər delitantdır. O erməni xislətindən kənara çıxa bilmir". Bunu SİA-ya açıqlamasında politoloq Cümşüd Nuriyev deyib.***



Politoloqun sözlərinə görə, Paşinyan rəsmi danışıqda bir şey deyir, cənab Prezidentlə görüşəndə özünü ayrı cür aparır, Putinlə görüşəndə isə bir başqa cür aparır: "Təbii ki, bu erməni xislətindən doğan genetik bir xəstəlikdir. Bunlar həmişə millət olaraq çalışırlar ki, hansı mühit olsa buqələmun kimi həmin mühitə uyğunlaşsınlar. Ona görə də Paşinyanın Almaniyaya səfəri zamanı verdiyi bəyanatlarında da mən qeyri-adi bir şey görmürəm. Çünki bu onların xislətindən doğur. Amma dövlət başçısı olaraq Paşinyanın hərəkətləri Ermənistanı çox pis vəziyyətə salacaq. Əslində Qərbin məqsədi Paşinyanın əli ilə bütün Qafqazı nəzarətdə saxlamaqdır. Paşinyan isə özünün ağılsız hərəkətləri ilə Ermənistanı çox ağır vəziyyətə salacaq. Açıqı, mən ondan müsbət bir şey gözləmirəm.

**Ceyhun Rasimoğlu**

# Davos səfəri ölkəmizin siyasi-iqtisadi inkişafına təkan verəcəkdir

***Azərbaycan Prezidenti İlham Əliyevin yanvarın 21-24-də Davos İqtisadi Forumunda iştirakı ölkəmiz üçün mühüm iqtisadi və siyasi əhəmiyyət kəsb edən hadisələrlə yadda qaldı. Azərbaycanın dövlət başçısının keçirdiyi rəsmi və işgüzar səfərlər respublikamızın son illərdə əldə etdiyi uğurların beynəlxalq ictimaiyyətə təqdim edilməsi ilə yanaşı, dünya birliyinə sıx interasiya proseslərində fəal rol oynadığını təsdiqləmiş oldu. Davos Forumunda bir daha sübut olundu ki, Prezident İlham Əliyevin yeni dünya iqtisadi-siyasi sisteminin müasir çağırışlarına cavab verən siyasi kursu, Azərbaycanı regionun lider dövlətinə çevirir və dünyada etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirməkdədir.***






***Qəzənfər ABBASOV, İqtisad elmləri doktoru, professor Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin "Maliyyə və uçot jurnalı"nın baş redaktoru***

Davos İqtisadi Forumu dünyada baş verən iqtisadi proseslərin, iqtisadi gündəliyinin müzakirə edildiyi ən böyük platformadır. Forum təkcə aktual iqtisadi məsələlərin deyil, həm siyasi, həm də ictimai məsələlərin müzakirə olunduğu ən böyük beynəlxalq tribunadır. Forumda dünyanın iqtisadi prioritetləri müəyyənləşdirilir, dünya siyasətinin əsas istiqamətləri müzakirə olunur. Dünya iqtisadiyyatına təsir göstərən bir çox qərarlar, yeni ideyalar, innovativ yanaşma tərzləri, məhz Davos İqtisadi Forumunda müzakirə edilir, mühüm qərarlar qəbul olunur. Bu təşəbbüslərin nəticəsi olaraq, qlobal iqtisadi mühitin sağlamlaşmasına, dünya ölkələri arasında çoxtərəfli və ikitərəfli iqtisadi konsensusların əldə olunmasına və mühüm layihələrin gerçəkləşməsini təmin edən sazişlərin imzalanmasına səbəb olur. Davos Forumu, həmçinin, qlobal iqtisadiyyata geniş baxış məkanıdır. Bir sıra şirkətlər öz partnyorlarını, məhz bu tədbirdə tapır və razılıq əldə edir. Bu ilki Forumun əsas mövzusunu qloballaşma və Dördüncü Sənaye İnqilabı dönəmində hökumətlər və bu inqilabi proseslərin iştirakçıları arasında qarşılıqlı əlaqənin və təsirin optimallaşdırılması problemlərinin araşdırılması təşkil edib. Eyni zamanda, qlobal geosiyasət, maliyyə sistemində texnoloji və potensial struktur dəyişiklikləri imkanları, kapital bazarlarının inkişafı, elektron ticarət, rəqəmsal iqtisadiyyat, qloballaşmanın strateji nəticələri və digər mühüm məsələlər forumun əsas mövzusu olubdur.

Forumda Azərbaycana və Prezident İlham Əliyevə böyük diqqət və maraq özünü növbəti dəfə aydın şəkildə göstərdi. Yanvarın 21-də Prezident İlham Əliyevin Dünya İqtisadi Forumunun prezidenti Borge Brende ilə görüşünü, xüsusilə, qeyd etmək lazımdır. Borge Brende Azərbaycan ilə Dünya İqtisadi Forumu arasında əməkdaşlıqdan və ölkəmizin bölgədə oynadığı roldan məmnunluğunu diqqətə çatdırıb. Eyni zamanda, Azərbaycanın qonşu və region dövlətləri ilə iqtisadi əməkdaşlığının və respublikamızın gücləndən iqtisadiyyatının bölgə ölkələrinin inkişafında əhəmiyyətli rol oynadığını yüksək qiymətləndirib.

Bu görüşdə Azərbaycan hökuməti ilə Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzi arasında, ilk dəfə olaraq, əməkdaşlığın təməli qoyuldu. Bu isə yeni çağırışlar əsasında dinamik inkişaf edən və yeni qlobal texnologiyaların tətbiqini genişləndirən Azərbaycanın qarşıdakı illərdə sənaye sektorunun şaxələndirilməsinə töhfəverici faktor kimi dəyərləndirilə bilər. Azərbaycan Dünya İqtisadi Forumu ilə əməkdaşlıq etməklə ən müasir qabaqcıl dünya texnologiyalarının ölkəmizə gətirilməsi, sənaye yönümlü innovativ məhsulların ixracı və rəqəmsal iqtisadiyyat quruculuğu sahəsində yüksək perspektiv nailiyyətlərə nail olacaqdır. Eyni zamanda, blokçeyn texnologiyaların ölkəmizdə tətbiqi sahəsində öz mühüm töhfəsini verəcəkdir.

Prezident İlham Əliyevin Borge Brende ilə apardığı faydalı müzakirələrdə ölkəmizdə aparılan islahatlar, inkişaf prosesləri barədə də məlumat verildi. Böyük nəqliyyat və infrastruktur layihələrinin, o cümlədən Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizləri ilə bağlı layihələrin, habelə, enerji layihələrinin reallaşdırılmasının həm respublikamız, həm də region üçün əhəmiyyəti vurğulandı. Bu, dünyanın ən nüfuzlu təşkilatının Azərbaycanın müasir iqtisadi vəziyyəti ilə yaxından tanış olması və respublikamızda davam etdirilən islahatlara gələcəkdə real və dəqiq qiymət verilməsi baxımından, mühüm əhəmiyyət daşıyır.

Azərbaycan Prezidentinin Forumda digər dövlət və hökumət başçıları, şirkət və korporasiya rəhbərləri ilə ənənəyə çevrilmiş görüşlərində də böyük maraq doğuran məsələlər müzakirə edildi. Bir məqamı, xüsusilə, qeyd etmək lazımdır ki, əksər biznes təşkilatlarının rəhbərləri İlham Əliyevlə görüşmək üçün, məhz Davos Forumun özləri üçün yaxşı fürsət hesab edirlər. Onlar ölkəmizin investisiya imkanlarını, bir daha araşdıraraq, əməkdaşlığı daha üst səviyyəyə keçirmək istəklərini ifadə etməklə, Azərbaycana hansı səviyyədə önəm verdiklərini göstərdilər. Məsələn, dünyanın 165-dən çox ölkəsində fəaliyyət göstərən "CİSCO" şirkətinin Azərbaycanla əməkdaşlıq əlaqələrini daha da artırmaq marağı etiraf olundu. Ölkəmizin dövlət və özəl sektorunda təmsil olunan bu şirkətin rəhbərinin Azərbaycan Prezidentinin apardığı iqtisadi islahatlar, həyata keçirdiyi iqtisadi yönümlü tədbirlərin, bilavasitə "CİSCO" şirkəti tərəfindən dəstəklənəcəyini və aparılan bu islahatlarda "CİSCO" şirkətinin iştirak etmək istəyi bildirildi. Eyni zamanda, dünyanın lider texnologiya şirkəti olan "Microsoft"un rəhbəri də görüşdə dövlətimizin başçısının liderliyi ilə Azərbaycanda əldə edilən iqtisadi uğurların, aparılan iqtisadi proseslərin iştirakçısı olduqlarını, həmçinin, bu iştirakçılığı daha da genişləndirmək istəklərini, Azərbaycanın gələcəyinə inamı ifadə etdi. Eyni zamanda, bildirdi ki, bütün təhlillər Azərbaycanın regiondakı mövcud liderliyini daha da genişləndirəcəyini, ölkənin daha da irəli gedəcəyini göstərir. Eləcə də, Prezident İlham Əliyevin "Royal

# Davos səfəri ölkəmizin siyasi-iqtisadi inkişafına təkan verəcəkdir

Philips", "SUEZ GROUP", "Lazard Freres", "Royal Philips", dünyanın nəhəng neft şirkətləri, o cümlədən, "Lukoil" və digər neft şirkətləri ilə görüşləri Azərbaycanın siyasi liderinə, dövlətimizə olan siyasi və iqtisadi marağın yüksək təsdiqi oldu. Digər şirkət rəhbərləri ilə keçirilən görüşlərdə də onların Azərbaycana investisiya yatırımları imkanlarını araşdırmaq üçün ölkəmizə səfər etməkdə maraqlı olduğu nəzərə çarpdı.

Dövlətimizin başçısı Çinin CGTN (China Global Television Network) televiziya kanalına müsahibəsində Azərbaycanda enerji sektorunun, iqtisadiyyatın müxtəlif sahələrinin inkişafına, ölkəmizin həyata keçirdiyi qlobal enerji və infrastruktur layihələrinə, respublikamızın "Bir kəmər-bir yol" layihəsində iştirakına, Azərbaycan-Çin ikitərəfli münasibətlərinə və digər məsələlərə toxundu.

Azərbaycan Prezidenti İlham Əliyev beynəlxalq biznes ictimaiyyətinin diqqətini bir daha ölkəmizin mürəkkəb qlobal proseslərə baxmayaraq, inamlı iqtisadi uğurlarını davam etdirdiyinə yönəldərək, onların hazırda başlanmış yeni iqtisadi imkanlardan faydalanmağa dəvət etdi. Dövlətimizin başçısının ölkəmiz haqqında real iqtisadi mənzərəni onların gözü qarşısında canlandırması, olduqca mühüm əhəmiyyət kəsb etdi. Ölkə iqtisadiyyatının şaxələndirilməsi siyasəti, qeyri-neft sektorunun sürətlə inkişaf etdirilməsi öz müsbət səmərəsini göstərməkdədir. Davos Forumunda bir məqam, xüsusilə, diqqətçəkici oldu. Azərbaycan Prezidenti hazırda ölkəmizdə islahatların hədəflərinə toxunarkən, innovativ texnologiyaların tətbiqi, rəqabətqabiliyyətli qeyri-neft ixracı və rəqəmsal iqtisadiyyat, Dördüncü Sənaye İnqilabının tələblərinə əsaslanan sənaye cəmiyyətinin qurulculuğu yolunda qətiyyətli addımların atılmasına toxundu. Dünya ölkələrinin biznes icması tərəfindən xüsusi maraqla qarşılanan bu bəyanat qlobal transkontinental şirkətlərinin maraqları ilə üst-üstə düşdüyü üçün onlar bu siyasətin yürüdülməsində ölkəmizlə daha sıx əlaqələr qurmaq niyyətlərini gizlətmədilər.

Davos İqtisadi Forumunda dünyanın ən nüfuzlu şirkət və korporasiyalarının, holdinqlərinin rəhbərlərinin iştirakı ilə keçirilən müzakirələrdə beynəlxalq enerji təhlükəsizliyi məsələlərinin müzakirəsi də, bu baxımdan, xüsusi əhəmiyyət daşıyır. Cənab Prezident İlham Əliyev Azərbaycanın bütün ölkələr üçün qlobal layihələrdə iştiraka açıq olduğunu və respublikamızın bu istiqamətdə atdığı addımların beynəlxalq əməkdaşlığa geniş imkanlar açdığını bəyan etdi. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan qlobal əhəmiyyət daşıyan layihələrə imza atmaqdadır, xüsusilə də, bütün Avropa ölkələrini əhatə edən "Cənub Qaz Dəhlizi" kimi nəhəng layihəyə start verib və bütün tərəfdaşların həmin layihələrdən bəhrələnmələri üçün hərtərəfli imkanlar yaradılıb. Bu, onu göstərir ki, Azərbaycan dünya dövlətləri üçün vacib və əhəmiyyətli ölkədir. Qlobal enerji məsələləri ilə bağlı aparılan müzakirələrdə Azərbaycanın mövqeyi başlıca xüsusi əhəmiyyət kəsb edir. Hazırda Azərbaycan region üçün strateji əhəmiyyətə malik Trans-Anadolu qaz kəməri (TANAP) və Trans-Adriatik boru kəməri (TAP) layihələrini reallaşdırır. Avropa layihəsi adlanan TAP birbaşa Xəzər dənizini Avropa ilə əlaqələndirəcək. Layihə Avropanın birgə uğuru və İttifaqımızın enerji təhlükəsizliyinin gücləndirilməsində bir dönüş nöqtəsidir. Bu qərar Xəzər dənizindən Avropa İttifaqına birbaşa xüsusi keçid olacaq və zamanla genişlənəcək "Cənub Qaz Dəhlizi"nin tam və çevik şəkildə reallaşmasına daha çox təkan verəcək.

Azərbaycan Prezidenti ölkəmizin beynəlxalq enerji və nəqliyyat qovşaqlarının yaradılmasında fəal iştirakı, birgə geniş əməkdaşlıq platformasının yaradılması sahəsində oynadığı mühüm rola diqqət çəkməklə yanaşı, digər regiona dövlətlərinin də açıq əməkdaşlıq mühitindən faydalanmasının vacibliyinə də toxundu. Bu məsələdə geosiyasi amillərin daha çox rol oyanadığını xatırlatdı. "Bir kəmər, bir yol" təşəbbüsünün inkişaf etdirilməsi: Çinin trilyon dollarlıq baxışı" mövzusunda sessiyada bəyan etdiyi kimi, ölkələri birləşdirən istənilən nəqliyyat layihəsinin geosiyasi əsası var. "Bu layihələr qarşılıqlı asılılıq yaradır. Biz qonşularımız olmadan tranzit ölkə ola bilmərik. Bizim qonşularımız onların qonşuları olmadan tranzit ölkələr ola bilməzlər. Buna görə bu, ölkələr zənciridir və bayaq dediyim kimi, biz Şərqdən Qərbə və Şimaldan Cənuba gedən yol üzərindəyik. Beləliklə, biz qitələri, ölkələri birləşdiririk və daha proqnozlaşdırıla bilən gələcək yaradırıq".

Cənab Prezident qonşu dövlətlərlə milli maraqlarımıza uyğun münasibətlərin qurulması, regionda yaşayan insanların mənafeyinə xidmət edən təşəbbüslərin irəli sürülməsi və həyata keçirilməsi sayəsində ölkəmizin sülhpərvər siyasət yürütməsinə diqqət çəkdi: "Biz o qədər də sabit olmayan bir regionda yaşayırıq. Sərhədlərimizə yaxın zonada gərgin vəziyyət müşahidə olunur. Biz yeni münaqişə mənbələrini, yeni risk mənbələrini görürük. Azərbaycan təcrübəsi, bizim əldə etdiyimiz nəticələr siyasətimizin doğru olduğunu nümayiş etdirir".

Dövlət başçısının Dünya İqtisadi Forumu çərçivəsində sessiya və panellərdə keçirdiyi digər görüşlərdə, müzakirələrdə fəal iştirakı zamanı ölkəmizin regionda həlledici mövqeyə malik aparıcı dövlət kimi tanınması xüsusi vurğulandı. Respublikamızın vaxtilə xarici yardımlara, investisiyalara ehtiyacı olan ölkədən sərmayə ixracatçısına çevrilməsi diqqətə çatdırıldı. Bildirildi ki, son illər dövlətimiz qarşıya qoyulan bir çox vəzifələrin həllinə nail olub, respublikamızın regional və qlobal əhəmiyyəti, etimad səviyyəsi xeyli yüksəlib, milli iqtisadiyyatımızın rəqabətədavamlı xarakteri güclənib, əhalinin sosial rifahı nəzərəçarpacaq səviyyədə yaxşılaşıb. Dünyada neftin qiymətinin aşağı düşməsinə baxmayaraq, Azərbaycan iqtisadiyyatı inkişafını davam etdirir, iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı düşünülmüş siyasət nəticəsində, artıq ölkəmiz neftdən asılı olmadığını təsdiq etməkdədir. Hazırda ölkə iqtisadiyyatının inkişafını təmin edən əsas mənbələr qeyri-neft sektorunda cəmləşib. Həmçinin, bir neçə il əvvəl, uzaqgörən siyasətin nəticəsi kimi, neft gəlirlərinin insan kapitalına çevrilməsi siyasəti öz uğurlarını göstərməkdədir. Respublikamızda informasiya-kommunikasiya texnologiyaları sahəsinin əsaslı şəkildə inkişafı üçün münasib işlər həyata keçirilir.

Azərbaycanın dövlət başçısının forumda qlobal problemlərin həllində dünya birliyini fəal olmağa dəvət etməsi, xüsusilə də, müxtəlif regionlarda iqtisadi çətinliklərin aradan qaldırılmasında təşəbbüskarlığın artırılmasına çağırışı mühüm əhəmiyyət kəsb etdi. Hazırda qloballaşmanın dərinləşməsi bir sıra dövlətlərin iqtisadi təhlükəsizliyinin təmin olunması və dayanıqlı inkişafın təminatına mane olur, dünyanın aparıcı inkişaf etmiş ölkələri və nüfuzlu maliyyə təşkilatları bu məsələdə sakit və seyrçi mövqedə qalmamalıdır. Azərbaycan Prezidentinin vurğuladığı kimi, qloballaşma inkişaf etməkdə olan ölkələrə müəyyən edilmiş hədəflərə çatmağın bəzən qarşısını alır, daha çox inkişaf etmiş ölkələrin mənafeyinə xidmət edir, bu isə yolverilməzdir: "Maliyyə ehtiyatları olmayan ölkələr üçün çox çətin olur. Maliyyə ehtiyatları olmayanların daha çox təxirəsalınmaz problemləri var. Məsələn, işsizlik, gəlir əldə etmək üçün iqtisadiyyatın real sektoruna investisiya yatırmaq və bu ölkələr üçün infrastruktur layihələri prioritet deyil. Buna görə düşünürəm ki, maliyyə institutları bu məsələyə daha çox diqqət ayırmalıdırlar. Xüsusilə, aparıcı beynəlxalq maliyyə institutlarını nəzərdə tuturam. Onlar on il ərzində iş yerlərinin açılmasına imkanlar yaradacaq ölkələrə infrastruktur sahəsinə investisiya yatırmağa kömək etməlidirlər". Azərbaycan Prezidentinin bu fikirləri müasir dünyanın iqtisadi problemlərinin həllində konseptual əhəmiyyət daşıyan çağırış kimi qiymətləndirilə bilər.

Prezident İlham Əliyev Davosda keçirilən görüşlər zamanı etdiyi çıxışlarda və verdiyi müsahibələrdə təkcə mövcud iqtisadi potensialımız haqda deyil, eyni zamanda, Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağın işğalı ilə ölkə iqtisadiyyatına vurulmuş ziyanla bağlı da iştirakçıları ətraflı şəkildə məlumatlandırıldı.

Xüsusi olaraq, onu da qeyd etmək lazımdır ki, forumda iştirak edən beynəlxalq ictimaiyyət, mötəbər maliyyə qurumları, dünyanın məşhur şirkət rəhbərləri və KİV təmsilçiləri tərəfindən Azərbaycanda uğurla həyata keçirilən islahatlar çox yüksək səviyyədə qiymətləndirildi. Bu, bir daha Azərbaycanın güclü siyasi və iqtisadi nüfuzunu təsdiqlədi.

Davos Forumu, Azərbaycan üçün digər mühüm xüsusi əhəmiyyəti, bu təşkilatın hər il açıqlanan hesabatıdır. Bu təşkilatın rəhbərliyi ilə hazırlanan hesabat iqtisadi və siyasi islahatlara verilən qiymət baxımından mühüm əhəmiyyət kəsb edir. Davos Dünya İqtisadi Forumunun elan etdiyi "Qlobal rəqabətlilik hesabatı"nı qeyd etmək olar. Bu hesabata görə, Azərbaycan, rəqabətqabiliyyətlilik üzrə dünyada 35-ci yerdədir. Azərbaycan MDB ölkələri üzrə birincidir, bir çox Avropa ölkələrindən isə öndədir. Rəqabətlilik hər şey deməkdir. "Qlobal rəqabətlilik hesabatı"nda 35-ci yer ölkədə aparılan həm siyasi, iqtisadi, sosial siyasətin vəhdətini, həm də ölkədə siyasi sabitliyin mövcudluğunu göstərən əsas amillərdən biridir. Ölkəmiz ötən il "Qlobal rəqabətlilik hesabatı"nda böhran illəri sayılan, neftin qiymətinin aşağı olduğu bu illərdə belə, 2 pillə irəliləyərək, 35-ci yerdə qərarlaşıbdır.

Respublikamız Davos Dünya İqtisadi Forumunun daha bir hesabatında - "İnklüziv inkişaf indeksi"ndə 2018-ci ildə Azərbaycan inkişaf etməkdə olan ölkələr arasında 3-cü, MDB ölkələri arasında 1-ci yerdədir. "İnklüziv inkişaf indeksi" çox önəmli bir indeksdir. İnklüzivlik, yəni bərabərlik hesabatı Azərbaycan üçün bir neçə istiqamətdən inkişafın təmin edilməsinin mühüm göstəricisi sayıla bilər. Hesabatın bir neçə indikatoruna əsasən, ölkədə yaşayan insanların həyat səviyyəsinin əsas göstəricilərindən biri adambaşına düşən ÜDM üzrə, habelə əhalinin məşğulluğu, əmək məhsuldarlığı və tibbi nöqteyi nəzərdən sağlam insanların gözləntiləri üzrə Azərbaycan yüksək qiymətləndirilib. Dünya İqtisadi Forumu iqtisadi inkişafın ənənəvi modellərinə xüsusi diqqət yetirərək səhiyyə sahəsində bərabərliyə, insan kapitalına, ətraf mühitin keyfiyyətinə, sosial müdafiəyə və ərzaq təhlükəsizliyini qiymətləndirir. Azərbaycanda aparılan sosial-iqtisadi islahatlar kursu həmin meyarlara tam uyğundur. Azərbaycanın hesabatda mühüm irəliləyici yer tutması Prezident İlham Əliyev tərəfindən həyata keçirilən məqsədyönlü, inklüziv iqtisadi islahatlara verilən beynəlxalq qiymət hesab oluna bilər.

# YAP Nəsimi rayon təşkilatının fəal gəncləri Milli Məclisdə olublar

Ölkəmizin hər yerində 2 Fevral Azərbaycan Gəncləri Günü yüksək səviyyədə qeyd edilir. Bu münasibətlə Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının bir qrup fəal gəncləri Milli Məclisin binasında olublar. Gənclər, öncə, müasir Azərbaycan dövlətinin Qurucusu, Ulu Öndər Heydər Əliyevin Milli Məclisin foyesində olan abidəsi önünə çiçəklər düzərək, Onun əziz xatirəsini bir dəqiqəlik sükutla ehtiramla yad ediblər.



Sonra gənclər Milli Məclisin fəaliyyəti ilə yaxından tanış olub, parlamentin Gənclər və İdman Komitəsinin bir qrup millət vəkilləri ilə görüşüblər. Onlara əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət-gənclər siyasətinin Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi, ölkəmizdə gənclərlə bağlı həyata keçirilən işlərdən, eyni zamanda, gələcək planlar haqqında ətraflı məlumat veriblər. Qeyd olunub ki, indiyə qədər gənclər siyasətinə dair bir sıra proqramlar qəbul olunub, Azərbaycanda gənclərin yüksək səviyyədə təhsil alması, intellektual səviyyəsinin yüksəldilməsi, dünyagörüşünün formalaşması və asudə vaxtlarının səmərəli təşkili məqsədilə tədbirlər görülüb. Həyata keçirilən mühüm tədbirlərin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğrulddublar. Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində fəallığı ilə seçilir və siyasi, iqtisadi, humanitar və sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Bildirilib ki, Azərbaycan gənclərinin günümüzün müasir, inkişaf etmiş, yüksək intellektli aparıcı qüvvə kimi formalaşmasında dövlətimizin apardığı gənclər siyasəti mühüm rol oynayıb.

***Nəzakət ƏLƏDDİNQIZI***

# YAP Binəqədi rayon təşkilatının hesabat yığıncağı keçirilib



Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının 2018-ci ilin yekunlarına həsr olunmuş hesabat yığıncağı keçirilib. Yığıncaqda rayon təşkilatının şura üzvləri və partiya fəalları iştirak ediblər.

Yığıncağı giriş sözü ilə açan YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov gündəlikdə duran məsələlər barədə məlumat verib. Sonra rayon təşkilatının ötən ildəki fəaliyyətini özündə əks etdirən geniş hesabat məruzəsi ilə çıxış edib. Bildirib ki, rayon təşkilatı fəaliyyətini, əvvəlki illərdə olduğu kimi, hesabat ilində də Azərbaycan Respublikasının qanunvericiliyinə, partiyanın Nizamnamə və Proqramına, partiya rəhbərliyinin tapşırıq və tövsiyələrinə əsasən, uğurla icra edib. Hesabat dövründə partiya sıralarına üzv olmaq üçün müraciət edən insanların sayında da artım müşahidə olunub. Belə ki, hesabat ilində rayon təşkilatının üzvlərinin sayı 220 nəfər artaraq, 15708 nəfərə çatıb. Bunlardan 8436 nəfəri qadın, 4412 nəfəri isə gənclərdən ibarətdir. R.Göyüşov, həmçinin, ötən ilin 11 aprel tarixində keçirilən prezident seçkilərindən danışaraq, dövlət başçısı İlham Əliyevin parlaq qələbəsini şərtləndirən səbəblərdən söz açıb, partiya üzvlərinin bu siyasi prosesdəki fəal iştirakından danışıb.



Yığıncaqda çıxış edən rayon təşkilatının gənclər birliyinin sədri Fəsli Nəbiyev birliyin ötən ildəki fəaliyyəti haqqında hesabatı yığıncaq iştirakçılarının diqqətinə çatdırıb. Qeyd edib ki, dövlətimizin prioritet sahələrin inkişafına hesablanan siyasi istiqamətlərindən biri də gənclər siyasətidir. Gənclərə diqqət və qayğı hər il daha da artır və konkret nəticələrlə müşahidə olunur. YAP Binəqədi rayon təşkilatı gənclər birliyi də gənclərin intellektual səviyyəsinin artırılması, elmə, təhsilə yiyələnmələri, peşəkar kadrlar olaraq yetişmələri, onlara vətənpərvərlik, dövlətçilik, azərbaycançılıq ideologiyasının aşılanması, milli-mənəvi dəyərlərin mənimsənilməsi, gənclərimizin dövlət və hökumət strukturlarında geniş təmsil olunmaları, ictimai-siyasi proseslərdə fəal iştirak etmələri üçün ardıcıl layihələr həyata keçirib.

Rayon təşkilatının qadınlar şurasının sədri Aytac Əliyeva hesabat məruzəsində şura tərəfindən ötən ildə görülən işlər barədə danışıb. Vurğulayıb ki, şura Azərbaycanda həyata keçirilən uğurlu qadın siyasətini əldə rəhbər tutaraq, qadınlarla işin daha yüksək səviyyədə qurulmasını və onların cəmiyyətdə fəal iştirakının təmin edilməsini qarşısında duran əsas məqsədlərdən biri hesab edir. Hesabat yığıncağında çıxış edən millət vəkili Kamaləddin Qafarov hesabat məruzələrində qeyd olunanları nəzərə alaraq, rayon təşkilatının 2018-ci ildə uğurla və səmərəli fəaliyyət göstərdiyini bildirib. YAP Binəqədi rayon təşkilatının partiyanın ən fəal rayon təşkilatlarından biri olaraq, daim əzmlə çalışdığını, partiya üzvləri ilə əlaqələrin qurulması, onların təşkilata cəlb edilməsi, müxtəlif tipli layihələrin uğurlu icrası, xüsusilə, Ulu Öndər Heydər Əliyev irsinin geniş təbliğ edilməsi yönündə mühüm fəaliyyətindən danışıb.

Yığıncaqda gündəlikdə duran məsələlər səsə qoyularaq, müvafiq qərarlar qəbul edilib. YAP Binəqədi rayon təşkilatının 2018-ci ildəki fəaliyyəti qənaətbəxş hesab edilib və 2019-ci il üçün müvafiq Fəaliyyət Planı təsdiq edilib.

Sonda partiya sıralarında fəal iştirakına görə, fərqlənən bir qrup şəxs Fəxri Fərmanla təltif edilib. Partiya sıralarına qəbul edilmiş gənclərə üzvlük vəsiqələri təqdim edilib.

***ZÜMRÜD BAYRAMOVA***

# Yevlaxda 2 Fevral Gənclər Günü münasibəti ilə tədbir keçirilib

YAP Yevlax rayon təşkilatı Yevlax rayon icra hakimiyyəti, rayon gənclər və idman idarəsinin birgə təşkilatçılığı ilə Gənclər Gününü qeyd edib. Tədbiri giriş sözü ilə Yevlax rayon icra hakimiyyəti başçısının I müavini YAP Yevlax rayon təşkilatı idarə heyətinin üzvü Qənimət Qaraşov Gənclər Günü ilə bağlı bütün gəncləri təbrik edib. Q.Qaraşov ölkə Prezidenti İlham Əliyevin Azərbaycan gənclərinə, xüsusilə, region gənclərinə göstərdiyi diqqətdən söz açaraq, Yevlax şəhərində tikiləcək Olimpiya Kompleksinin Yevlax gəncləri üçün ən böyük hədiyyə olduğunu dilə gətirib.



YAP Yevlax rayon təşkilatı qadınlar şurasının sədri Əminə Əhmədova, rayon təşkilatı gənclər birliyinin sədri Ariz Mikayılov, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasətinin bu gün Möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən geniş söz açaraq, bildiriblər ki, son illər rayonda Gənclər Evi inşa olunub, təhsil ocaqlarında idman meydançaları və zallar tikilərək istifadəyə verilmişdir. Yeni iş yerlərində çalışanların böyük əksəriyyəti gənclərdir. Zöhrə Adıgözəlova və Bünyamin Musayev çıxışlarında qeyd etdilər ki, təsadüfi deyil ki, Cənab Prezidentimizin yüksək qayğı və diqqəti sayəsində bu gün ölkəmizin bütün şəhər və rayonlarında gənclər irəli çəkilir.

Tədbirdə YAP Yevlax rayon təşkilatının sədr müavini - aparat rəhbəri Əli Quliyev çıxış edərək, Yeni Azərbaycan Partiyasının gənclərə yanaşma tərzindən danışıb: "YAP gəncləri gələcəyə böyük inamla baxır, ölkəmizin rifahı naminə nəzərdə tutulan inkişaf proqramlarının reallaşdırılmasında ən aparıcı qüvvəsidir".

Sonda partiyanın ictimai-siyasi həyatında fəallıq göstərən bir qrup gənc YAP Yevlax rayon təşkilatı və Yevlax şəhər Mədəniyyət Mərkəzi tərəfindən Fəxri Fərman və qiymətli hədiyyələrlə mükafatlandırılıb. Həmçinin, partiya sıralarına qəbul olunan bir qrup gəncə partiya üzvülük vəsiqələri təqdim olunub.

***R.KAMALQIZI***

# YAP Masallı rayon təşkilatı "Gənclər Günü"nü qeyd edib



Respublikamızın bütün bölgələrində olduğu kimi, YAP Masallı rayon təşkilatında da "Gənclər Günü" qeyd olunub. Tədbiri giriş sözü ilə YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev açaraq bildirib ki, Azərbaycan gəncliyi ölkənin ictimai-siyasi, həmçinin, sosial-iqtisadi və digər sferalarında aktiv fəaliyyət göstərir, intellektual imkanları ilə dövlətçiliyimizin möhkəmləndirilməsi işinə öz töhfəsini verir: "Azərbaycan gəncliyi ölkəmizi beynəlxalq aləmdə də layiqincə təmsil edir, dövlətimiz haqqında həqiqətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılmasında, mədəni-mənəvi irsimizin təbliğ olunmasında fəallıq nümayiş etdirir. Bütün bunlar gəncliyimiz üçün dövlətimiz tərəfindən yaradılmış əlverişli imkanlar, verilmiş mükəmməl təhsil və özünü təsdiqləmək üçün ideal məkan əsasında ərsəyə gəlib. Müasir Azərbaycan gəncliyi unutmur ki, onlar müstəqil dövlətin azad gəncləri olaraq, bugünkü uğurlara, məhz Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu və hazırda Prezident İlham Əliyevin uğurla davam etdirdiyi siyasi kurs nəticəsində sahib olublar". Tədbirdə çıxış edən YAP Masallı rayon təşkilatı gənclər birliyinin sədr müavini Tofiq Əsgərov ölkəmizdə gənclərə göstərilən diqqət və qayğıdan danışaraq, gənclər siyasətinin dövlət siyasətinin prioritet istiqamətinə çevrildiyini bildirib. T.Əsgərov, onu da vurğulayıb ki, Azərbaycan gənclərinin dünyanın aparıcı ali məktəblərində dövlətin dəstəyi ilə təhsil almaları, ixtisaslı kadrlar kimi ölkənin daha da qüdrətlənməsi istiqamətində fəaliyyət göstərmələri dövlətin onlara olan etibarının əyani göstəricisidir.

Tədbirdə gənclərdən Bəxtim Qarayev, Leyla Baxışova, Orxan Dadaşov, Təskin Şahbazov və başqaları çıxış edərək, gəncliyə göstərilən dövlət qayğısından və bu qayğının Azərbaycan gəncliyinin sabaha daha böyük inamla baxmağa əsas verdiyini vurğulayıblar.

Görüşün sonunda YAP sıralarına yeni daxil olmuş gənclərə üzvlük vəsiqələri və partiya həyatında fəal iştirakına görə bir qrup gəncə qiymətli hədiyyələr, fəxri fərmanlar verilib.

***R.HÜSEYNOVA***

# Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramının təsdiqindən sonra ölkəmizdə yoxsulluq səviyyəsi 2001-ci ildəki göstəricidən 10 dəfə azalmışdır

*Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının katibi Hüseyn Hüseynov*



***- Hüseyn müəllim, hazırda Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması dünya ölkələri üçün aktuallıq kəsb edir. BMT-nin Dayanıqlı İnkişafMəqsədləri təşəbbüsü hansı prinsiplər əsasında qurulmuşdur və ölkələr üçün əsas məqsədi və töhfələri nələrdən ibarətdir?***

- Dünyada qlobal çağırışların ölkələrin birgə səyləri ilə həllində beynəlxalq təşəbbüslərin rolu sözsüz ki, danılmazdır. Bu baxımdan "2030-cu ilədək Dayanıqlı İnkişaf üzrə Gündəlik" dünyada insanların qarşılaşdığı problemləri tanıdır və onların birlikdə həllinə çağırır.

Ölkələrin ümumi tərəfdaşlığı şəraitində planetin sağlam və təhlükəsiz məkana çevrilməsi istiqamətində qətiyyətli addımların atılması üçün ilk beynəlxalq təşəbbüslərdən biri 2000-ci ilin sentyabrında ABŞ-ın Nyu-York şəhərində keçirilmiş "Minilliyin Sammiti"ndə irəli sürülüb. Belə ki, Sammitdə 2015-ci ilədək olan dövr üçün dünyada insanların yaşayışında əhəmiyyətli müsbət dəyişikliklər yaratmaq məqsədilə ümumi çərçivəni müəyyən edən səkkiz qlobal Minilliyin İnkişaf Məqsədinin (MİM) təsbit olunduğu Minilliyin Bəyannaməsi qəbul edilib. Bu MİM-lər kəskin yoxsulluğun və aclığın aradan qaldırılması, universal ilkin təhsilə nail olunması, gender bərabərliyi və qadınların səlahiyyətlərinin artırılması, uşaq ölümünün azaldılması, qadınların sağlamlığının gücləndirilməsi, yoluxucu xəstəliklərin qarşısının alınması, ətraf mühitin təhlükəsizliyinin təmin olunması kimi hədəfləri əhatə edirdi. 2000-ci ilin sentyabr ayında keçirilən Summitdə Ümummilli Lider Heydər Əliyev tərəfindən Minilliyin Bəyannaməsi imzalanmış və ölkəmiz bu təşəbbüsə qoşulmuşdur.

Əsrin başlanğıcında 1 milyona yaxın qaçqın və məcburi köçkün problemi olan, əhalisinin demək olar ki, yarısı yoxsulluq səviyyəsində yaşayan Azərbaycan üçün Minilliyin Bəyannaməsində nəzərdə tutulan məqsədlərə nail olmaq kifayət qədər böyük çağırış idi. BMT-nin Minilliyin Bəyannaməsinə qoşulan və bu hədəflərə nail olmaqda qərarlı ölkə kimi Azərbaycanda yoxsulluqla mübarizə sahəsində kompleks tədbirlərin təmin edilməsi məqsədi ilə "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı" və eləcə də "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" təsdiq edilib, bu proqramlar yoxsulluq probleminin həlli istiqamətində təsirli tədbirlərin həyata keçirilməsinə imkan yaradıb, nəticədə ölkədə yoxsulluq səviyyəsi 2001-ci ildəki göstəricisindən 10 dəfə azalmışdır.

Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin məqsədyönlü və uğurlusosial-iqtisadi inkişaf strategiyası nəticəsində 2015-ci ildə MİM-lərin icrasının yekunları ilə bağlı Romada keçirilən təqdimat mərasimində Azərbaycan yoxsulluğun aradan qaldırılması sahəsində qazanılan uğurlara görə Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) "Cənub-Cənub" mükafatına layiq görülüb. Bu siyasətin nəticəsi olaraq, Azərbaycan dünyada 128 ölkə arasında az qidalanma sayının azaldılması məqsədinə nail olan 18 ölkədən biridir.

Qeyd edim ki, Minilliyin İnkişaf Məqsədlərinin icrasının başa çatması heç də qlobal dünyada mövcud çətinliklərin tamamilə aradan qaldırılmasını təmin edə bilməyib. UNESCO-nun 2016-cı il üzrə hesabatına görə, hazırda dünyada 6-17 yaş arası 263 milyon uşaq, yeniyetmə və gənc, o cümlədən inkişaf etməkdə olan ölkələrdə hər 4 qızdan 1-i məktəbdən kənarda qalıb. Eyni zamanda, dünyada hər il 6 milyondan artıq uşaq 5 yaşına çatmamış dünyasını dəyişir. Planetdə 800 milyondan çox insan aclıqdan və 1 milyarddan çox insan isə ifrat yoxsulluqdan əziyyət çəkir. Bunlar göstərir ki, 2015-ci ilədək nail olunması hədəflənən Minilliyin İnkişaf Məqsədləri bütün ölkələr tərəfindən tam olaraq həyata keçirilməyib. Ona görə də daha əhatəli, planetin, o cümlədən cəmiyyətin bütün təbəqələrinin fəal cəlb olunmasını nəzərdə tutan yeni qlobal təşəbbüsün icrasına zərurət yaranıb.

Bu məqsədlə BMT-yə üzv dövlətlər 2015-ci ilin sentyabrında keçirilən Sammitdə 2016-2030-cu illər üçün 17 məqsədi və 169 hədəfi özündə birləşdirən yeni qlobal Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) icrasına qoşulublar.

Dayanıqlı inkişaf sahəsində 2030-cu il Gündəliyi və bu sənəddə ehtiva olunan DİM yoxsulluğun aradan qaldırılması, planetin mühafizəsi və hamı üçün tərəqqinin təmin edilməsinə yönələn öhdəliklərdən ibarətdir.

2030-cu ilədək İnkişaf Gündəliyi DİM üzrə nəticələr çərçivəsində təsbit olunmuş 3 əsas prinsipi - "universallıq", "inteqrasiyalı yanaşma" və "heç kimin geridə qalmaması" prinsiplərini özündə əks etdirir. Universallıq prinsipi DİM-in ölkələrin inkişaf səviyyəsindən asılı olmayaraq, bütün ölkələr üçün tətbiq edilməsi imkanları kimi qəbul olunur. İnteqrasiyalı yanaşmada ölkələrin qəbul etdikləri inkişaf planları və dövlət strategiyalarında dayanıqlı inkişafın iqtisadi, ekoloji və sosial ölçülərinin inteqrasiyalı və ardıcıl əhatə edilməsi nəzərdə tutulur. Heç kimin geridə qalmaması prinsipi isə MİM dövründə kəskin yoxsulluq səviyyəsinin azaldılmasında əldə olunan nailiyyətlərə söykənərək, ölkələri insan inkişafına dair faydaların zəif və təcrid olunmuş qruplara da çatdırılmasını təmin etməyə və bu məqsədlə bərabərsizlikləri aradan qaldırmağa, layiqli məşğulluğu təşviq etməyə, habelə sosial müdafiəni gücləndirməyə əsaslanır.

BMT-nin fəal üzvü kimi qlobal problemlərin həllində iştiraka töhfə verməyə böyük səy göstərən ölkəmiz də BMT-nin 17 Dayanıqlı İnkişaf Məqsədi və 169 hədəfi özündə birləşdirən qlobal DİM təşəbbüsünə qoşulub.

***- Ölkəmizdə DİM-in icrasının milli prioritetlərə, dövlət proqramlarına və strategiyalarına uyğunlaşdırılması istiqamətində nə kimi addımlar atılır?***

- DİM-in həyata keçirilməsinin ən mühüm mərhələlərindən biri də onun məqsəd, hədəf və göstəricilərinin ölkənin İnkişaf Gündəliyinə uyğunlaşdırılmasıdır.

Bu məqsədlərin uğurlu icrasının təmin olunması üçün atılan ən mühüm addım Azərbaycan Respublikasının Prezidentinin 2016-cı il 6 oktyabr tarixli Fərmanı ilə Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılmasını qeyd edilməlidir.

Belə ki, 2030-cu ilədək Azərbaycan üçün əhəmiyyət kəsb edən, qlobal məqsəd və hədəflərə uyğun milli prioritetləri və onlara dair göstəriciləri müəyyənləşdirmək, habelə ölkədə sosial-iqtisadi sahələri əhatə edən dövlət proqramlarının və strategiyalarının DİM ilə uzlaşdırılmasını təmin etmək Şuranın fəaliyyətinin əsasını təşkil edir. Onu da qeyd edim ki, Şuranın Katibliyinin fəaliyyətinin təmin edilməsi məqsədilə İqtisadiyyat Nazirliyində müvafiq struktur bölmə - Dayanıqlı İnkişaf Şöbəsi yaradılıb.

Ötən iki il ərzində ölkədə sosial-iqtisadi və ekoloji sahələri əhatə edən dövlət proqramları və strategiyalarının DİM hədəfləri ilə uyğunlaşdırılması təmin edilib.

Belə dövlət sənədlərinə nümunə olaraq, 8-ci Dayanıqlı İnkişaf Məqsədi (Davamlı iqtisadi artımı, tam və səmərəli məşğulluğu və hamı üçün layiqli iş imkanlarını təşviq etmək) ilə uyğunlaşdırılan 2019-2030-cu illəri əhatə edən "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası"nı qeyd etmək olar. Bununla yanaşı, "2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı", o cümlədən iqtisadi, sosial və ətraf mühit məsələlərinin müxtəlif aspektlərini əhatə edən bir sıra normativ-hüquqi akt və dövlət proqramları DİM-in məqsəd və hədəflərinə uyğunlaşdırılaraq qəbul edilib.

Bundan başqa, DİM-in ölkənin İnkişaf Gündəliyinə uyğunlaşdırılması üçün beynəlxalq təcrübənin tətbiqi məqsədilə 2017-ci ildə BMT-nin Baş Qərargahının dəstəyi ilə 9 ekspertdən ibarət Sürətləndirmə, aktuallaşdırma və siyasətə dəstək üzrə missiya (MAPS MİSSİYA) Azərbaycana səfər edib. Səfərin əsas məqsədi DİM-in milli prioritetlərə uyğunlaşdırılması istiqamətində dəstəyin göstərilməsi olub. Missiya zamanı DİM-in ölkə üzrə icrada olan müxtəlif strateji proqramlara uyğunlaşdırılması üçün BMT tərəfindən Sürətli Kompleks Qiymətləndirmə aparılıb və bu qiymətləndirmədə 31 cari qısa və orta müddətli dövlət proqramı, sektoral strategiya və müvafiq tədbirlər planlarından istifadə edilib. Bununla yanaşı, hazırlanmaqda olan 8 orta və uzunmüddətli strategiya, proqram və fəaliyyət planları, o cümlədən 25-dən çox normativ-hüquqi akt, beynəlxalq saziş və müqavilə nəzərdən keçirilib. Missiyanın hesabatında DİM-in milli siyasət bazasına uyğunlaşdırılma dərəcəsinin təhlili aparılıb və Azərbaycanda DİM-ə nail olunması istiqamətində irəliləyişi sürətləndirmək məqsədilə 3 platforma (inklüziv əmək bazarları, ekoloji baxımdan daha təmiz inkişafın dəstəklənməsi, ictimai və sosial xidmətlər göstərilməsinin yaxşılaşdırılması) təklif edilib.

Missiyanın tövsiyələri Dayanıqlı İnkişaf Gündəliyinin məqsəd, hədəf və göstəricilərinin milli inkişaf prioritetlərinə uyğunlaşdırılması prosesində uğurla tətbiq edilib. Ölkədə dayanıqlı inkişafın təmin edilməsi, habelə sosial-iqtisadi inkişafın sürətləndirilməsi üçün müxtəlif sahələri əhatə edən dövlət proqramlarının və strategiyalarının DİM ilə uzlaşdırılması məqsədilə Azərbaycan üçün prioritet hesab edilən məqsəd, hədəf və ona uyğun göstəricilərin yekun siyahısı hazırlanıb və Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının növbəti iclasına baxılacaqdır.

***- Hüseyn müəllim, Dayanıqlı İnkişaf Məqsədlərinin icrası üçün bütün maraqlı tərəflərin prosesə cəlb edilməsi və maarifləndirmə xüsusi önəm daşıyır. Bu baxımdan, Azərbaycanda DİM ilə əlaqədar maarifləndirilmə istiqamətində hansı tədbirlər həyata keçirilib və bu tədbirlərdən gözləntilər nədir?***

- Qeyd etdiyim kimi, DİM-in həyata keçirilməsinin ən mühüm prinsiplərindən biri də "heç kimin geridə qalmaması"dır. Bu prinsip, ilk növbədə qlobal məqsədlərin ölkədə icrasının və cəmiyyətin bütün təbəqələrinin bu vahid hədəflərə nail olunmasında birgə səylərinin vacibliyini şərtləndirir.

"2030-cu il Gündəliyi"nin uğurlu icrası, "heç kimin geridə qalmaması" prinsipinə əsaslanaraq, ictimai maarifləndirmənin aparılması, maraqlı tərəflərin, o cümlədən vətəndaş cəmiyyəti, biznes sektoru və kütləvi informasiya vasitələrinin cəlb edilməsi məqsədilə Azərbaycan Hökuməti və BMT-nin Azərbaycandakı ofisi tərəfindən 2017-2018-ci illəri əhatə edən Azərbaycan üçün Dayanıqlı İnkişaf Məqsədləri üzrə Kampaniya Strategiyası həyata keçirilib. Strategiyanın icrasına dəstək məqsədilə Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının, İqtisadiyyat Nazirliyinin və BMT-nin Azərbaycandakı nümayəndəliyinin təşkilatçılığı ilə bütün maraqlı tərəflərin iştirak etdiyi DİM-in həyata keçirilməsində parlamentin, elmi ictimaiyyətin, təhsilin, vətəndaş cəmiyyətinin, özəl sektorun, və s. rolu ilə bağlı müxtəlif mövzularda maarifləndirici tədbirlər keçirilib, panel müzakirələr təşkil edilib. Bu tədbirlər zamanı DİM-in iqtisadi, sosial və ekoloji sahələrində planetin rifahına nail olunması, bu sahədə hər bir dövlətin öhdəlikləri, xüsusilə bütün maraqlı tərəflərin iştirakının ayrı-ayrılıqda əhəmiyyətli olduğu diqqətə çatdırılıb.

Qloballaşan dünyada inkişafa olan maneələrin birgə aradan qaldırılması baxımından DİM-in həyata keçirilməsində beynəlxalq və regional tərəfdaşlığın gücləndirilməsi xüsusi əhəmiyyətə malikdir. Müxtəlif ölkələrin inkişaf təcrübələrinin bölüşdürülməsi, qarşıya çıxan çətinliklərin birgə həlli və bütün maraqlı tərəflərin prosesə cəlb edilməsi 2030-cu ilədək dünya ictimaiyyətinin qlobal məqsədlərə nail olmasına töhfəsini verəcəkdir.

Son dövrlərdə DİM-in Azərbaycanda icrası istiqamətində ən mühüm tədbirlərdən biri 2018-ci il 25-26 oktyabr tarixlərində Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası, İqtisadiyyat Nazirliyi və BMT-nin Azərbaycandakı nümayəndəliyinin dəstəyi ilə "Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi üzrə regional tərəfdaşlığın gücləndirilməsi"nə həsr olunmuş Bakıda təşkil olunmuş "Dayanıqlı İnkişafa dair Bakı Forumu"nu xüsusi qeyd etmək lazımdır.

Forumun məqsədi DİM-ə nail olmaq üçün davamlı iqtisadi artımı, tam və səmərəli məşğulluğu və hamı üçün layiqli əmək imkanlarını, dayanıqlı inkişaf üçün sülhsevər və inklüziv cəmiyyətləri təşviq etmək, hamı üçün ədalət məhkəməsinə çıxış imkanını təmin etmək və bütün səviyyələrdə səmərəli, məsuliyyətli və inklüziv təşkilatlar qurmaq, həmçinin dayanıqlı inkişaf naminə qlobal tərəfdaşlığın həyata keçirilməsi və təşviqi vasitələrini gücləndirilməsi idi.

Avropa və Mərkəzi Asiyada qlobal məqsədlərin milli səviyyədə icrasının əlaqələndirilməsinə cavabdeh olan yüksək vəzifəli şəxslər, habelə BMT-nin səlahiyyətli rəsmilərininin iştirak etdiyi Bakı Forumu regionda DİM-in həyata keçirilməsi və çətinliklərin birgə aradan qaldırılması məqsədilə regional tərəfdaşlığın gücləndirilməsinin müzakirəsi üçün səmərəli platforma olub. Dayanıqlı İnkişafa dair Bakı Forumunun nəticəsi olaraqBakı Bəyannaməsi qəbul edilib.

Bundan əlavə, DİM-in, "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası və "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri"nin icrasına dəstək məqsədilə ilə İqtisadiyyat Nazirliyi və BMT-nin Azərbaycandakı nümayəndəliyinin birgə təşkilatçılığı nəticəsində ölkəmizdə innovasiya sahəsində ilk dəfə ölkə əhəmiyyətli Respublika İnnovasiya Müsabiqələri keçirilib. Müsabiqənin təşviqi və bu istiqamətdə ictimaiyyətin maarifləndirilməsi məqsədilə ölkədə fəaliyyət göstərən dövlət, idarə, müəssisə və təşkilatlarla yanaşı, ölkənin qabaqcıl təhsil ocaqlarının müəllim-tələbə heyəti ilə bir sıra görüşlər təşkil edilib, həmçinin müsabiqələrə təqdim edilən layihələrin qəbulunun daha da sadələşdirilməsi "ASAN xidmət"in "İdeya Bankı" platforması vasitəsilə həyata keçirilib.

**Ardı Səh. 12**

# Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramının təsdiqindən sonra ölkəmizdə yoxsulluq səviyyəsi 2001-ci ildəki göstəricidən 10 dəfə azalmışdır

*Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının katibi Hüseyn Hüseynov*

Əvvəli Səh. 11

Belə müsabiqələr innovativ layihələrlə tanışlığa və onların reallaşmasına mühüm platforma yaradır. Bu sahəyə xüsusi marağın artması növbəti müsabiqələrə təqdim olunacaq layihələrin sayının artacağını da istisna etmir. Bu cür tədbirlərin keçirilməsi innovasiya subyektlərinin fəaliyyətlərinin səmərəliliyinin artırılması, innovasiya infrastrukturu çərçivəsində kiçik və orta sahibkarlığın inkişafı üçün zəruri şəraitin yaradılması, müvafiq infrastrukturun inkişafına dəstək olacaq elmi-tədqiqat bazasının təkmilləşdirilməsi, innovasiya fəaliyyətinin kadr potensialının inkişafı və DİM-lə bağlı maarifləndirilmə baxımından xüsusi əhəmiyyətə malikdir.

Müvafiq sahədə fəaliyyətin davamlılığının təmin edilməsi, ölkədə hər il müxtəlif istiqamətlərdə ideya və layihələrin qəbulu, qiymətləndirilməsi və mükafatlandırılması məqsədilə keçirilən Respublika İnnovasiya Müsabiqəsinin təşkil olunması üzrə İqtisadiyyat Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Mədəniyyət Nazirliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Azərbaycan Milli Elmlər Akademiyası və "Ernst & Young" beynəlxalq audit şirkətinin Azərbaycandakı filialı arasında birgə əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.

DİM-lə bağlı geniş ictimaiyyətin maarifləndirilməsi, bu prosesdə iştirakın həvəsləndirilməsi və bütün səviyyələrdə cavabdehliyin təmin edilməsi tədbirlərinin davamı olaraq, Dənizkənarı parkdaDİM-ə həsr olunmuş stendlər quraşdırılıb. BMT-nin İnkişaf Proqramının dəstəyi ilə BMT-nin Azərbaycandakı nümayəndəliyi və IDEA İctimai Birliyinin tərəfindən təqdim olunan stendləri məqsədləri asan şəkildə izah etməklə yanaşı, bu məqsədlərə nail olmaq üçün hər kəsin görə biləcəyi işlərə dair məsləhətləri özündə əks etdirir.

***- Bu yaxınlarda Yeni Azərbaycan Partiyası Gənclər Birliyi və Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının birgə təşkil etdiyi "Gənclər daha yaxşı Gələcəyə Doğru" konfrans keçirilib. Bu tipli tədbirlərdən gözləntilər nədən ibarətdir?***

- Dünya əhalisinin 16%-ni gənclərin təşkil etdiyini nəzərə alsaq, onların sağlam və fəal həyat tərzini təşviq etmək, habelə cəmiyyətə inteqrasiyasını təmin etmək, potensialının reallaşdırılmasını dəstəkləmək kimi prioritet istiqamətlər ölkəmizdə qəbul edilmiş proqramların mühüm hədəflərindəndir. Bu prioritet istiqamətlər Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərman və sərəncamları ilə təsdiq olunmuş "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası, Milli İqtisadiyyat Perspektivi üzrə Strateji Yol Xəritəsinin əsas məqsədlərindəndir.

Qeyd etdiyiniz kimi, gənclərlə iş Yeni Azərbaycan Partiyasının fəaliyyətində əsas yerlərdən birini tutur. YAP Gənclər Birliyi tərəfindən artıq bir neçə ildir ki, uğurla davam etdirilən və ölkəmizin bütün bölgələrindən olan gəncləri də əhatə edən müxtəlif layihələr həyata keçirilməkdədir. Keçən ilin dekabrında təşkil edilən "Dayanıqlı İnkişaf Məqsədləri gənclər üçün" konfransı da həm DİM-lə bağlı maarifləndirmə, həm də dayanıqlı inkişafa nail olunmasında gənclərin rolunun artırılması baxımından mühüm müzakirə platforması olub. Konfransda keyfiyyətli təhsil, hamı üçün məşğulluğu və layiqli əməyi təşviq etmək, inklüziv və dayanıqlı iqtisadi artım və sağlam yaşayışın təmin olunması, bu istiqamətdə səylərin artırılmasında gənclərin rolu müzakirə edilib.

Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası və İqtisadiyyat Nazirliyi tərəfindən DİM-in təşviqi üzrə maarifləndirmə və bütün maraqlı tərəflərin prosesə cəlbi məqsədilə silsilə tədbirlər həyata keçirilir. Bununla yanaşı, xüsusilə vurğulamaq istərdim ki, gənclər arasında maarifləndirmə və fəal gənclərin prosesə geniş cəlbi məqsədi ilə Ətraf Mühitin Mühafizəsi naminə Beynəlxalq Dialoq İctimai Birliyi (IDEA) tərəfindən mütəmadi olaraq tədbirlər təşkil edilir.

Ölkədə təşkil olunan bu tipli tədbirlərin əsasında DİM-in ölkə üzrə icrasının yaratdığı məsuliyyətin gənclər tərəfindən dərk olunması və qarşıya qoyulan hədəflərə nail olunmasında onların vacib rolu ilə bağlı geniş maarifləndirmə dayanır.

***- Hüseyn müəllim, Azərbaycanda qeyri-hökumət təşkilatlarının (QHT) bu prosesə cəlb edilməsi işi hansı səviyyədədir?***

- Vətəndaş cəmiyyəti institutları DİM-in milli səviyyədə icrasında müxtəlif formalarda iştirak edə bilər. Bu, ilk növbədə, təşviqat, o cümlədən daxili və beynəlxalq hesabatlılıq proseslərində fəal iştirakın təmin olunması formatında ola bilər.

Eyni zamanda, QHT-lərin üzərinə düşən ən mühüm vəzifələrdən biri də, DİM-in geniş ictimaiyyətə çatdırılması, cəmiyyətin bütün təbəqələrinin bu barədə təsəvvürünün formalaşdırılması vasitəsilə maarifləndirilmə tədbirlərinin əhatə dairəsinin genişləndirilməsində iştirakdır.

Bu baxımdan, 2017-ci ilin may ayında QHT-lərin iştirakı ilə keçirilmiş "Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında vətəndaş cəmiyyətinin rolu" mövzusunda panel müzakirənin təşkil olunması mühüm maarifləndirmə tədbirlərindən biridir.

Tədbir çərçivəsində dayanıqlı inkişafın idarə olunması və icrasında vətəndaş cəmiyyətinin rolu barədə iqtisadi, sosial və ekoloji sahələri əhatə edən layihələri həyata keçirən QHT nümayəndələrinin fikirləri dinlənilib, bu istiqamətdə fəallığın artırılmasının dair tövsiyələr səsləndirilib.

Eyni zamanda, Avropa İttifaqı ilə birgə maliyyələşdirilən BMT-nin İnkişaf Proqramının "Gender əsaslı Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində vətəndaş cəmiyyətinin rolunun artırılması" layihəsi reallaşdırılır və İqtisadiyyat Nazirliyinin nümayəndəsi də layihənin istiqamətləndirici komitəsində təmsil olunur. Layihənin əsas məqsədi gender bərabərliyinin təmin edilməsi ilə dayanıqlı inkişaf məqsədlərinin həyata keçirilməsində vətəndaş cəmiyyətinin rolunun artırılması və bu istiqamətdə olan layihələrinin dəstəklənməsidir.

***- Məlumdur ki, 2017-ci il 16-19 iyul tarixlərində BMT-nin Baş Qərargahında Azərbaycanın Dayanıqlı İnkişafla bağlı görülmüş işlərə dair Birinci Könüllü Milli Hesabatı təqdim edilib. Bəs 2019-cu ildə təqdim edilməsi nəzərdə tutulan İkinci Könüllü Milli Hesabatın əsas istiqamətləri nədən ibarətdir?***

- 2017-ci il 10-19 iyul tarixlərində Nyu-Yorkda keçirilmiş BMT-nin müəyyən etdiyi tematik plana uyğun olaraq yoxsulluğun və aclığın aradan qaldırılması, sağlam səhiyyə və rifah, gender bərabərliyi, sənaye, infrastruktur və innovasiyalar, su altında həyat və hər il nəzərdən keçirilən icra vasitələrini gücləndirmək, dayanıqlı inkişaf naminə qlobal tərəfdaşlığı yenidən canlandırmaq məqsədləri üzrə Azərbaycanın ilk Könüllü Milli Hesabatı BMT-nin Baş qərargahında keçirilən Yüksək Səviyyəli Siyasi Forumda Azərbaycan Respublikasının Baş nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlqaələndirmə Şurasının Sədri cənab Əli Əhmədov tərəfindən təqdim edilib. Bu hesabatınAzərbaycanda DİM-in həyata keçirilməsi üzrə görülmüş işlərin beynəlxalq arenada tanıdılması imkanlarından biri kimi rolunu və iştirakçı dövlətlər tərəfindən müsbət qarşılandığını xüsusilə vurğulamaq istərdim.

Bu ildə də Yüksək Səviyyəli Siyasi Forum üçün BMT-nin tematik planına uyğun olaraq regionda ilk dəfə Azərbaycanın İkinci Könüllü Milli Hesabatının təqdim ediləcəkdir. 2019-cu il üçün İkinci Könüllü Milli Hesabatın hamı üçün ayrı-seçkiliyə yol verilməyən və bərabər keyfiyyətli təhsili təmin etmək və həyat boyu öyrənmək imkanlarını təşviq etmək, davamlı, inklüziv və dayanıqlı iqtisadi artımı, tam və səmərəli məşğulluğu və hamı üçün layiqli iş imkanlarını təşviq etmək, ölkələrin daxilində və arasında bərabərsizlikləri azaltmaq, iqlim dəyişikliyi və onun təsirləri ilə mübarizə aparmaq üçün təxirəsalınmaz tədbirlər görmək, dayanıqlı inkişaf üçün dinc və inklüziv cəmiyyətləri təşviq etmək, hamı üçün ədalət mühakiməsinə çıxış imkanını təmin etmək və bütün səviyyələrdə effektiv, məsuliyyətli və inklüziv təşkilatlar qurmaq və icra vasitələrini gücləndirmək və dayanıqlı inkişaf naminə qlobal tərəfdaşlığı yenidən canlandırmaq üzrə hədəf və göstəriciləri, habelə məqsədlər üzrə əldə edilən uğurları və növbəti addımları əhatə etməsi nəzərdə tutulur.

***- Hüseyn müəllim, DİM-in həyata keçirilməsində BMT-nin ixtisaslaşmış qurumları ilə əməkdaşlıqlar və əməkdaşlıqların nəticələri barədə nə demək istərdiniz?***

- 2015-ci ildə Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulması BMT-nin ixtisaslaşmış qurumları ilə geniş əməkdaşlıq imkanları yaratmışdır. Dayanıqlı İnkişaf Məqsədlərinin prioritetliyi nəzərə alınaraq, Avropa İqtisadi Komissiyası ilə Azərbaycan Hökuməti arasında müxtəlif sahələr üzrə əməkdaşlığın genişləndirilməsi, habelə tərəfdaşlıq istiqamətlərinin müəyyən olunması müzakirə edilmişdir.

Qeyd olunan müzakirələrin nəticəsi olaraq, Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi üzrə Azərbaycan Respublikası ilə AİK arasında tərəfdaşlıq barədə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, Xarici İşlər Nazirliyi və Azərbaycanın Cenevrədəki BMT bölməsi və digər beynəlxalq təşkilatlar yanında Daimi Nümayəndəliyinin iştirakı ilə yekun məsləhətləşmələr aparılmış, hər iki tərəfin təklifləri nəzərə alınmaqla "Dünyamızın transformasiyası: dayanıqlı İnkişaf üzrə 2030 Gündəliyi"ndən irəli gələn Dayanıqlı İnkişaf Məqsədlərinin tətbiqinə yardım etmək, bu çərçivədə qlobal öhdəliklərin tətbiq edilməsi, habelə dayanıqlı inkişaf üçün siyasətlərin, təcrübələrin, innovativ həllərin və maliyyə mexanizmlərinin yaradılması məqsədilə 2018-ci ilin 30 noyabr tarixində Azərbaycan Respublikasının Hökuməti və Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi Komissiyası arasında Dayanıqlı İnkişaf Məqsədlərinin tətbiqi üzrə əməkdaşlıq barədə Azərbaycan Respublikasının Baş nazirinin müavini və AİK-in icraçı direktoru tərəfindən Birgə Bəyanat imzalanmışdır.

Birgə Bəyanat DİM-ə nail olunması məqsədilə fəaliyyətlərin həyata keçirilməsi və bu barədə hesabatın verilməsi üzrə əməkdaşlıq, dayanıqlı inkişaf üçün milli prioritetlərin və göstəricilərinin müəyyən edilməsi məqsədilə müştərək fəaliyyət, iqtisadi sahələri əhatə edən milli proqramların və strategiyaların uyğunlaşdırılması və bu sahədə uğurlu təcrübələrin tətbiqinin sürətləndirilməsi və milli iqtisadiyyatın müxtəlif sektorlarının dayanıqlığının təmin edilməsi kimi niyyətləri təsbit edir.

Bundan başqa, BMT-Azərbaycan əlaqələri 2016-cı ilin iyul ayında imzalanan 2016-2020-ci illər üçün "Birləşmiş Millətlər Təşkilatı - Azərbaycan Tərəfdaşlıq Çərçivə Sənədi" (UNAPF) mühüm əhəmiyyət kəsb edir. Sənədin hazırlanma prosesində beynəlxalq tərəfdaşlar, özəl sektor, vətəndaş cəmiyyəti və elmi ictimaiyyətin nümayəndələri ilə sıx əməkdaşlıq qurulub, iqtisadi şaxələndirmə, keyfiyyətli və səmərəli xidmətin təşkili, kənd və şəhər yerlərinin tarazlı inkişafı, təbii və bərpa olunan resursların səmərəli şəkildə idarə olunması, təhlükələrin, fəlakətlərin və iqlim dəyişikliyinin təsirlərinə qarşı dayanıqlılığın artırılması kimi mühüm məsələlər üzrə hədəflər müəyyən edilib və sənəd DİM ilə inteqrasiya edilib. Həm UNAPF çərçivəsində, həm DİM-in həyata keçirilməsinə dəstək məqsədilə BMT-nin Azərbaycanda yerləşən ixtisaslaşmış qurumları ilə İqtisadiyyat Nazirliyi (Şuranın Katibliyi) arasında bir sıra layihələr həyata keçirilməkdədir. Ölkədə sosial-iqtisadi sahələri əhatə edən dövlət proqramları və strategiyalarının DİM ilə uzlaşdırılmasına dəstək məqsədilə BMT-nin İnkişaf Proqramı tərəfindən Dayanıqlı inkişaf üzrə Milli Əlaqələndirmə Şurasının Katibliyinə dəstək üçün "Azərbaycan Hökumətinə Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsinə dəstək" layihəsinin icrası bu gün də davam edir.

Bununla yanaşı, ölkədə DİM-in səmərəli icrası üçün BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Azərbaycan Hökumətinə dəstəyi çərçivəsində 2017-ci ildə "Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində potensialın gücləndirilməsinə dəstək" layihəsinin reallaşdırılması məqsədi ilə Vyananın Təbii Resurslar və Həyat Elmləri Universitetinin (BOKU) İnkişaf Araşdırmaları Mərkəzi (CDR) ilə saziş imzalanıb. Layihənin Azərbaycandakı fəaliyyətindən biri ölkəmizdə kənd təsərrüfatı, ərzaq, balıqçılıq və meşə təsərrüfatı sahələrində DİM üzrə ümumi vəziyyət və boşluqların təhlillər aparılıb və bununla əlaqədar, ölkənin müxtəlif regionlarında maraqlı tərəflərin iştirakı ilə maarifləndirmə tədbirləri keçirilib.

Yuxarıda da qeyd etdiyim kimi, DİM ilə uyğunlaşdırılan "2016-2020-ci illər üçün Birləşmiş Millətlər Təşkilatı - Azərbaycan Tərəfdaşlıq Çərçivəsi (UNAPF) sənədi"nin icrası üzrə artan şaxələndirilmə və layiqli əməyi özündə ehtiva edən dayanıqlı və inklüziv iqtisadi inkişafın təşviqi, institusional potensialın gücləndirilməsi, səmərəli ictimai və sosial xidmətlər və ətraf mühit üzrə idarəçilik, habelə təbii fəlakətlər və fövqəladə hallara qarşı dayanıqlılıq prioritet istiqamətlərində həyata keçirilən müxtəlif layihələr üzrə BMT-nin ixtisaslaşmış qurumları olan FAO, Beynəlxalq Əmək Təşkilatı (ILO), İnkişaf Proqramı (UNDP), Qaçqınlar üzrə Ali Komissarlığı (UNHCR), Uşaq Fondu (UNICEF), Avropa İqtisadi Komissiyası (UNECE) və digər beynəlxalq institutlarla əməkdaşlıq davam etdirilir.

Bu əməkdaşlıqdan gözləntilər olaraq, qeyd etmək istərdim ki, BMT və digər beynəlxalq təşkilatlarla əlaqələr ölkəmizdə Dayanıqlı İnkişaf Məqsədlərinin icrası istiqamətində qarşıya çıxa biləcək çətinliklərin aradan qaldırılması üçün ən yaxşı təcrübələrin tətbiqi, Azərbaycan təcrübəsinin digər ölkələrdə təşviq olunması, o cümlədəndayanıqlı inkişaf məqsədlərinin həyata keçirilməsi üzrə qlobal tərəfdaşlığın gücləndirilməsinə töhvə verəcəkdir.

# “Milli Şura”da gizli savaş

*Əli Kərimli Cəmil Həsənlidən yaxa qurtarıb, sədr postunu ələ keçirməkdə israr edir*

***Son aksiyalarının ardınca, siyasi düşərgədə heç bir nüfuzu olmayan, fəaliyyətsizliyi ilə “ölü qurum” adını haqq edən “Milli Şura” daxilində gərginlik artmaqdadır. Artıq uzun müddətdir ki, aralarında ciddi fikir ayrılıqları yaşanan sədr Cəmil Həsənli ilə AXCP sədri Əli Kərimlinin çox yaxın zamanlarda münasibətlərinə son qoyulacağı barədə söz-söhbətlər gəzməyə başlayıb. Buna səbəb kimi, C.Həsənlinin bir neçə dəfə öz çıxışlarında “Milli Şura”nın, daha dəqiq desək, AXCP-nin siyasi görüşündən kənar kontekstlərdə fikirlər yürütməsidir ki, həmin fikirlər də, məhz Ə.Kərimlinin maraqlarına cavab verməyib. Çünki “Milli Şura”nın, bilavasitə AXCP-nin satelliti, yaxud marioneti olması kimsəyə sirr deyil. O cümlədən, “Milli Şura”nın idarəçilik nüvəsinin, bilavasitə Ə.Kərimlinin əlində olması da bəllidir.***

## Cəmil Həsənli Əli Kərimlinin hansı planlarından məlumatlıdır?

Digər maraqlı məqam C.Həsənlinin Ə.Kərimlinin planlarından məlumatlı olmasıdır. Belə ki, artıq “Milli Şura”da ikitirəlik yaranıb və bu qurumda iki hissəyə parçalanmış tərəflər Həsənli-Kərimli cəbhələrinə bölünüblər. Quruma yaxınlığı ilə seçilən mənbədən aldığımız xəbərə görə, C.Həsənlinin yanında olanlar, əsasən, yaşlı nəslin nümayəndələridir. Misal üçün, “VAMP” sədri Hacıbaba Əzimov keçirilən bütün iclaslarda C.Həsənlinin mövqeyini müdafiə edir.

Ə.Kərimlinin isə yanında olanlar, əsasən, onun mövqeyini müdafiə edənlərdir ki, məhz AXCP sədrinin tapşırığına əsasən, sosial şəbəkələrdə zaman-zaman C.Həsənli qruplaşmasına qarşı müəyyən çıxışlar edirlər.

## “Milli Şura” sədrinin “REAL” sədrinə dəstək göstərməsi AXCP sədrini qıcıqlandırıb



Yeri gəlmişkən, Həsənli ilə Kərimli arasındakı qarşıdurmaya daha bir səbəb “Milli Şura” sədrinin “REAL” partiyasının sədri İlqar Məmmədovu “perspektivli müxalifət lideri” adlandırması olub. Halbuki AXCP sədri hal-hazırda özünə ən böyük maneəni İ.Məmmədovda görməkdədir. Ə.Kərimlinin İ.Məmmədovu tənqid etməsi, özünü isə “müxalifətin vahid lideri” kimi təqdim etməsi deyilənləri kifayət qədər təsdiq etmiş olur. Ona görə də, C.Həsənlinin İ.Məmmədov barədə müsbət yönlü fikirlərini açıqlaması Ə.Kərimliyə “soyuq duş” effektini verib.

Növbəti bir səbəb isə, mitinqlərin keçirilməsi ilə əlaqəlidir. Belə ki, bu məsələdə də sözləri çəp gələn iki sədr - Ə.Kərimli və C.Həsənli fəqli mövqelərdən çıxış edirlər. Kərimli mitinqlərə start verilməsinin, Həsənli isə mitinqlərin heç bir effekt vermədiyinə görə, start verilməməsinin tərəfdarıdır. Görünür, mitinqlərin effektsizliyi ilə bağlı İ.Məmmədovla eyni düşüncəyə malik olan C.Həsənlinin bu addımı da qarşıdurmanı kəskin həddə qədər artırmaqdadır.

## Çoxluq Cəmil Həsənlini çıxdaş edəcək

Mənbə, həmçinin, qeyd edib ki, yaxın günlərdə “Milli Şura”nın koordinasiya şurasının iclası keçiriləcək və orada C.Həsənlinin “Milli Şura”ya sədrliyi məsələsinə yenidən baxılacaq və çox ehtimal ki, şuranın əsas çoxluğunun AXCP sədrinə dəstək verdiyini nəzərə alsaq, Həsənli öz postu ilə vidalaşmalı olacaq. Sədr olaraq isə, “Milli Şura”ya AXCP-nin sədri Ə.Kərimli seçiləcək ki, bu da qurumdaxili intriqaların qızışması ilə nəticələnəcək. Hər halda, “Milli Şura”dakı vəziyyət kritik nöqtəyə qədər inkişaf edib və bu siyasi mövsümdə həmin faktor özünü artıqlaması ilə sübut edəcək.

***Rövşən RƏSULOV***

# Növbəti iflas...

*Və ya üzütüpürcəklilər Əli Kərimli və dəstəsinə... nə tövbə*

***Yanvarın 19-da Yasamal rayonundakı İdman-Sağlamlıq Kompleksinin stadionunda uzun illərdən bəri iki minlik baryeri aşaraq, 2800 adam toplayan dağıdıcı müxalifət növbəti addımı ilə potensialının son dərəcə biabırçı vəziyyətdə olduğunu nümayiş etdirdi. 10 gündən artıqdır sosial şəbəkələr və başqa vasitələrlə Məhəmmədəmin Rəsulzadənin ildönümünü “möhtəşəm aksiya”ya çevirəcəklərini bəyan edən “Milli Şura”, Müsavat, AXCP və digər partiyalar M.Ə.Rəsulzadənin abidəsinin yanına cəmi 200-300 adam yığa biliblər.***

Miskin və acınacaqlı durumda olan və sosial şəbəkələrdə ağızdolusu “xalqın dəstəyi” barədə danışan “liderciklər”, o cümlədən oğru, xəyanətkar və satqın AXCP sədri Əli Kərimli utanmadan deyirdi ki, “Milli Şura” M.Ə.Rəsulzadənin heykəlinin önünə “10 minlərlə insan”ın gələcəyini deyirdi. Hətta, polis belə onlara heç bir maneçilik törətmədi. Bütün bunlar göstərir ki, Ə.Kərimli, Cəmil Həsənli və digər radikal müxalifət başçılarının dedikləri ağ yalan və ictimaiyyətin çaşdırılmasına yönəlmiş ucuz təbliğatdan başqa bir şey deyil.

## Müxalifətin növbəti oyunbazlığı da baş tutmadı

M.Ə.Rəsulzadənin abidəsi qarşısında belə oyunbazlıqlar edən Ə.Kərimli və İ.Qəmbər bu və ya digər şəkildə səmərə götürəcəklərini düşünürdülər, ancaq yenə yanıldılar, həm də yandılar.

## Əli Hüseynli: “Radikal müxalifətin “mitinq” keçirmək məqsədi iğtişaş yaratmaq, ictimai-siyasi sabitliyi pozmaqdır”

Milli Məclisin Hüquq Siyasəti və Dövlət Quruculuğu Komitəsinin sədri Əli Hüseynli radikal müxalifətin “mitinq keçirmək adı altında iğtişaş yaratmaq, ictimai-siyasi sabitliyi pozmağa çalışdığını bildirib: “Radikal müxalifətin mitinq keçirmək məqsədi nə Məhəmməd Əmin Rəsulzadənin, nə də 20 Yanvar şəhidlərini anmaqdır. Onların məqsədi iğtişaş yaratmaq, ictimai-siyasi sabitli-



yi pozmaqdır”.

Ə.Hüseynli onu da bildirib ki, 2008-ci ildə “Sərbəst toplaşmaq haqqında” qanuna bununla bağlı dəyişiklik edilib və bu dəyişikliklər qanunsuz toplaşmaqla bağlı halların qarşısının alınmasına xidmət edir: “Hüquq-mühafizə orqanları da asayişi pozmaq istəyənlərlə bağlı məsələnin öhdəsindən gəlir. Bundan başqa, 2016-cı ilin payız sessiyasında Cinayət Məcəlləsinə edilən dəyişikliklərə əsasən, internetdə saxta profillərdən istifadə edənlər üçün cəza tədbirləri müəyyənləşib. Hətta burada saxta profil istifadəçilərinə qarşı azadlıqdan məhrumetmə cəzası da tətbiq edilib. Lakin təcrübə göstərir ki, dəyişikliklərin tətbiqi ilə bağlı müəyyən boşluqlar var. Buna görə də, qanunvericiliyə yenidən baxmağa ehtiyac var”.

Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın şəhid ailələri ilə görüşünün xalqımız tərəfindən yüksək qəbul olunduğunu deyən komitə sədri söyləyib ki, buna baxmayaraq, radikal müxalifət internetdə şəhid ailələrini təhqir edir, dövlət başçısı ilə görüşmələrinə görə onları qınayır: “Xalqımız bilməlidir ki, həmin şəxslər hakimiyyətə müxalif deyillər, onlar xalqa və Azərbaycan dövlətinə nifrətlə yanaşırlar. Əgər onlar zamanında öz yaşadıqları ərazini qoruya bilsəydilər, bu qədər şəhid verməzdik. Naxçıvan blokadada olsa da, Ulu Öndər Heydər Əliyev oranı qorudu. Lakin bu insanlar heç öz kəndlərini belə qoruya bilmədilər”.

## Araz Əlizadə: “Radikal müxalifət mitinqdən başqa siyasi mübarizə üsulu tanımır”

ASDP sədri, millət vəkili Araz Əlizadə radikal müxalifətin son 20 il ərzində inkişaf etmədiyini söyləyib: “Bu dağıdıcılar oxumayıblar, öyrənməyiblər. Bircə Məhəmmədəmin Rəsulzadəni dəstəvuz eləyiblər əllərində. Onu da, artıq hörmətdən salırlar”.

A.Əlizadə onu da bildirib ki, radikal müxalifətdə olan şəxslər Milli Azadlıq Hərəkatı başlayanda, kiçik elmi işçilər idilər: “Varyonka” şalvarda gəzirdilər, “Avrora” siqareti çəkirdilər. Dövlət çevrilişi yolu ilə hakimiyyətə gəldilər və xalqı bədbəxtliyə düçar etdilər. Bunlar bir dəfə hakimiyyətin dadına baxıblar və xalqı vətəndaş müharibəsi təhlükəsi qarşısında qoyub qaçıblar. İndi “bəlkə də qaytardılar” xülyası ilə yaşayırlar”.

Partiya sədrinin sözlərinə görə, dağıdıcı müxalifət mitinqdən başqa siyasi mübarizə üsulu tanımır: “Bunlar mitinqdən başqa mübarizə yolu tanımırlar. Bir dənə sözləri var ki, hakimiyyətə gələk. İndiyə qədər bir proqram da ortaya qoymayıblar. Prezident seçkilərində də 9-cu sinif şagirdinin yazacağı bir inşa kimi proqram göstərdilər”.

Göründüyü kimi, belə satqın və xəyanətkarların bir yolu var: hamısını bir yerə yığıb, zibilliyin ən iylənmiş yerində basdırmaq.

***Rəfiqə HÜSEYNOVA***

# Tailandın aeroportlarında siqaret çəkmək qadağan edilib




Tailandın altı əsas hava limanının sərnişin binalarında siqaret çəkmək qadağan edilib. AZƏRTAC Tailand KİV-lərinə istinadla xəbər verir ki, bunlar paytaxt Banqkokun “Suvarnabhumi” və “Don Mıanq” hava limanları, populyar turizm bölgəsi olan Puketdəki aeroport, habelə Çianqmay, Hatyay and “Mefahlınq” hava limanlarıdır. Həmin hava limanlarının sərnişin binalarındakı siqaret çəkmək üçün otaqları ləğv edilib. Siqaret çəkmək yalnız binaların bayırındakı xüsusi ayrılmış məntəqələrdə mümkün olacaq.

Bildirilir ki, qadağa 2017-ci ildə qəbul edilmiş tütün nəzarəti haqqında qanunun tələblərinə uyğun tətbiq edilir. Qadağanı pozanlar 5 min Tailand bahtı (təxminən 160 ABŞ dolları) cərimə ödəməli olacaqlar.

# Bakıda mebel anbarından oğurluq edən şəxs saxlanılıb



Binəqədi Rayon Polis İdarəsinin (RPİ) 5-ci Polis Bölməsinə müraciət edən Bakı şəhər sakini olan qadın 2018-ci il dekabr ayının 29-dan 31-dək olan müddətdə Ə.Rəcəbli küçəsindəki mebel anbarından kompyuter və 5000 manat dəyərində mebel üzlüklərinin oğurlandığını bildirib. DİN Mətbuat Xidmətindən SİA-ya verilən məlumata görə, müraciətlə əlaqədar dərhal müvafiq araşdırmalara başlanılıb. Həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər də oğurluğa görə məhkum olunan Bakı şəhər sakini R.Dadaşov müəyyən edilərək polis əməkdaşları tərəfindən saxlanılıb. Faktla bağlı araşdırma aparılır.

# Müxalifətin iblis xislətlisi

*Əli Kərimli xəyanətinin izi ilə...*

***Haqq nazilər, amma üzülməz - atalar gözəl deyib. AXCP sədri Əli Kərimli xəyanətkar, satılıb-satan Vətən xainidir. Biz bununla bağlı çox demişik, çox yazmışıq.***

Ancaq nə qədər yazsaq da, Ə.Kərimlinin xəyanətləri acı bağırsaq kimi uzanıb gedir... Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Eldar İsmayılovun sədrliyi ilə keçirilən növbəti məhkəmə iclasında şahid qismində dindirilənlərin verdikləri ifadələr də bir daha AXCP sədri Ə.Kərimlinin xarici qüvvələrin göndərdiyi maliyyəni əldə etmək məqsədi ilə ölkədə təxribatlar törətmək istəyini sübuta yetirməkdədir. Bunu məhkəmə iclasında dindirilən Elçin Əsgərbəyli, Cavid Məsimli, Tural Mehdixanov və Cavanşir Abışov AXCP sədrinə vəsait toplanıldığını və bu pulların Ə.Kərimliyə çatdığını bildiriblər. Həmçinin, məhkəmə zamanı ən əsas məqam isə, AXCP sədrinə istər Rusiyadan, istərsə də digər xarici dövlətlərdən toplanılan vəsaitlərin qanunsuz yollarla çatdırıldığının da üzə çıxmasıdır.

### Əli Kərimli haqqında indiyə kimi bilinməyən sirlər...

1993-cü ildə hakimiyyət devrildikdən sonra Əbülfəz Elçibəy başda olmaqla, AXC rəhbərliyinə daxil olan



yüksək vəzifə sahibləri ya həbs olundu, ya da ölkədən qaçdılar. 1994-cü ildə Ə.Kərimli heç bir maneə olmadan Bakıya qayıtdı və AXC sədrinin birinci müavini qismində təşkilata rəhbərlik etməyə başladı.

Belə bir zamanda, Ə.Kərimli sərbəst siyasi fəaliyyətə başladı. 1995-ci ildə Ə.Kərimli artıq AXCP-nin proporsional siyahısına başçılıq edərək, parlament seçkilərinə qatıldı və Milli Məclisin deputatlığına layiq görüldü.

### Əli Kərimlinin gerçək portreti...

1995-ci ildən Kələkidə olan Elçibəy AXCP-yə sədr seçilsə də, yeni yaranan partiyanın təşkilatlanma, idarə olunma prosesi "Yurd"çuların nəzarətində olub. Bu nüansları heç də əbəs yerə xatırlatmırıq. Çünki AXCP-nin yarandığı gündən bəri, belə demək mümkünsə, başına gələnlər "Yurd"un adı ilə çox vaxt birbaşa bağlı olub və bu çirkin əməllərini həyata keçirmək üçün əl atmadığı variant, üz tutmadığı yol qalmayıb. Çatmaq istədiyi məqsədləri uğrunda rahatlıqla ən yaxın adamını belə əzməyə hazırdır. Bu səbəbdən də, AXCP-yə maliyyə gəliri qazandıran sənaye müəssisəsi kimi baxan Ə.Kərimli, Razi Nurullayev demiş, cəbhəçiləri portağal qabığı kimi soyur. O, həmişə cəbhəçilərin ən kiçik istəklərini belə, özünə qarşı təhdid kimi görüb. Ə.Kərimli üçün "yaxşılar" və "pislər" var: Güvəndikləri "yaxşılar"dır, qalanları isə "pislər"dir. Bir gün cəbhəçilərdən hansınınsa birinin sədrliyi ələ keçirəcəyindən qorxan Ə.Kərimli psixoloji olaraq, büruzə verməməyə çalışsa da, özünü ən aşağı səviyyədə hiss edir. Özünü düşdüyü quyudan çıxarmaq üçün tərəfdarlarının başlarında çıxış etməyi sevir və buna təhlükəsizlik zirehi kimi baxır.

Çünki o, bütün tərəfdarlarına minlərlə vədlər verməklə, öz tələsinə düşənləri özünün maraqlarına xidmət etməyə məcbur edir. Bu, o iblis xislətli Ə.Kərimlidir ki, tək öz xalqına, vətəninə deyil, amalına, məsləkinə, dostluğuna, yoldaşlığına qarşı da xəyanət yolu tutub. Onun "siyasi karyerasında", xüsusilə, ermənilərlə işbirliyini təsdiq edən amillər istənilən qədərdir və bu barədə onun əməllərinin sübuta ehtiyacı yoxdur. Ancaq Ə.Kərimli etdiyi xəyanətlərə görə cəzasını çəksə də, boynunda qalan mənəvi borcunu da ödəyə bilməyəcək. Çünki bu borcu ödəməkdən ötrü ən azından, dəmir barmaqlıqlar arasına getməlidir.

***Rəfiqə HÜSEYNOVA***

# Müxalifətin birləşməsi mümkün deyil

***Müxalifətdaxili çəkişmələr gərginləşdikcə, xarici maraqlı dairələr də dağıdıcı ünsürlərlə əlaqələrini dayandırmaq kursu götürməkdədirlər. Çünki heç bir işə yaramayan yarıtmaz müxalifətlə iş birliyinə getmək qrant dəllalları üçün əlverişli deyil. Mövcud yanaşma müxalifətin kürkünə birə salıb. Vəziyyətdən çıxmaq və xarici ağalarına müsbət görüntü nümayiş etdirmək üçün İsa Qəmbər, Əli Kərimli, Arif Hacılı və Cəmil Həsənli görüşərək, ümumi bir birliyin və birgə aksiyaların keçirilməsi ətrafında müzakirələr aparıblar. Söhbət etdiyimiz müsahiblərimiz bir-birinə düşmən kəsilən bu qüvvələrin birgə fəaliyyət göstərməsinin mümkünsüz olduğunu bildirdilər.***

### TOHGMİB-nın sədri Emin Həsənli: "Müxalifət məhvə məhkumdur"

- Müxalifət düşərgəsini təmsil edən bu şəxslərin birgə fəaliyyət göstərmələri inandırıcı görünmür. Siyasətə gəldikləri gündən bu günə qədər İsa Qəmbər, Əli Kərimli, Arif Hacılı və Cəmil Həsənli bir-biriləri ilə yola getməyiblər. Hər zaman da çalışıblar ki, biri digərindən üstün olsun. Yəni bir-birlərinin varlıqlarını qəbul etməyiblər və etmək də istəməyiblər. Belə olan halda, adları çəkilən şəxslərin hansısa bir formatda



birləşmələri mümkün deyil. Müxalifət xaricdən maliyyə yardımları almaqla, öz çirkin niyyətlərini və planlarını həyata keçirməyə çalışıb. Görünür, pul verən ağaları onlara birləşmək barədə komanda verib. Yəni onları bir yerə yığan "ağaları"dır. Bir sözlə, nə qədər sıfırları toplasan da cəmi sıfır edir. Bu baxımdan da, adları çəkilən şəxslərin bir ayara gəlmələrinin heç bir əhəmiyyəti və təsiri olmayacaqdır. Çünki xalqın bu qüvvələrə heç bir dəstəyi yoxdur. Belə olan halda da, müxalifət məhvə məhkumdur.

### "Demokratik Sol" partiyasının sədri, politoloq Elşən Manafov: "Müxalifətin xalq tərəfindən heç bir siyasi dəstəyi yoxdur"

- Pərakəndə vəziyyətdə fəaliyyət göstərən müxalifətin, nəhayət ki, ortaq məxrəcə gəlməsi mümkün deyil. Həm də onların bir araya gəlmələri də heç nəyi dəyişməyəcək. Çünki bu il nə prezident, nə də ki, parlament seçkilərinin keçirilməsi nəzərdə tutulur. Olsa-olsa, Azərbaycanda bələdiyyə seçkiləri keçirilə bilər. Qanunvericiliyə görə, müxalif mövqedə dayanan partiyaların bu seçkilərə qatılmaq və öz namizədləri ilə həmin seçkilərdə və yerli idarə orqanlarında təmsil olunmaq hüquqları var. Başqa məsələdə isə hər iki tərəf hazırda ana müxalifət lideri roluna iddialıdır. Hər iki tərəfin bu rola olan iddiası, əslində, zaman-zaman onların xidmət etdikləri müvafiq qurumların, məlum dövlətlərin, məlum dairələrin



diqqətini cəlb etmək və əslində, daha çox qrant və maliyyə vəsaiti əldə etmək istəyindən irəli gələ bilər. Çünki istər Müsavat, istər AXCP-nin məlum kəsiyinin Rəsulzadənin 135-ci ildönümü ilə bağlı keçirdiyi aksiya da göstərdi ki, tərəflər arasında, hətta zamanında Cümhuriyyət qurulmasında müstəsna xidmətləri olmuş bu şəxslə bağlı tədbirdə belə, ortaq məxrəcə gələ bilmədilər. Müsavat və AXCP ayrıca aksiya təşkil etdilər. Bir sözlə, hər iki partiyanın hakimiyyətlə mübarizədə alternativ mübarizə metodu yoxdur. Həmçinin, müxalifətin xalq tərəfindən heç bir siyasi dəstəyi yoxdur.

***GÜLYANƏ***



**Təhmasib Novruzov**

## "Xilaskar"lıq, yoxsa xalis karlıq?

***Bizim "əziz-xələf" müxalifətimizin lənqərlilərindən, üzr istəyirəm, liderlərindən tez-tez eşitdiyimiz bir ifadə var: biz xalqı xilas etmək istəyirik (?..). Bu zavallılar hələ də anlamırlar ki, pul, mal, mülk xəstəliynə düçar olan özlərini xilas etməyə gücləri çatmırsa, kimi, nədən və ya kimdən, həm də necə xilas edəcəklər? Pulun quluna çevrilib millətini, müstəqil dövlətini, o cümlədən, yaxınlarını düşmənlərə satmağa hazır olanların kimisə xilas etmək adı ilə meydana atılması Don Kixotun dəyirman savaşına bənzəyir. Fərq ondadır ki, Don Kixot sevdiyi Dulsineyası uğrunda mübarizə aparır. Bu binəvaların isə sevdiyi puldu-paradı ki, onun yolunda, nəinki dəyirmanla, inək tövləsi ilə də savaşarlar. Ta ki, pul verən ağaları onlardan razı qalsınlar.***

Bu ölkənin sadə vətəndaşı olaraq "xilaskar" sözünü həmin mağmunların dilindən eşidəndə, qəşş eliyib gülməkdən özümü saxlaya bilmədim. Nəfsinə tət deyib düşmən köləliyindən qurtula bilməyənlər, yəni nəfsinin qulu olub, azad olmaq üçün çaba göstərməyənlər, kimlərisə azad etməkdən danışırlar. Onların pafosla səsləndirdikləri bu populist çıxışların hansı məqsədə xidmət etdiyi ölkədə "məmə deyəndən-pəpə yeyənə" kimi hamıya yaxşı məlumdur. Odur ki, bu barədə ətraflı yazıb hörmətli oxucularımın qiymətli vaxtını almaq etmək istəmirəm. Ancaq onların "xilaskarlıq" missiyalarının məzmununa atüstü ekskurs etmək, fikrimcə, pis olmazdı. 1993-cü il çox da uzaq tarix deyil və indiki yaşlı nəsil o illəri yaxşı xatırlayır. İndi korrupsiyadan, bürokratiyadan ağızları köpüklənə-köpüklənə danışanların bir illik hakimiyyəti ölkəni hansı vəziyyətə salmışdı! İnsanların həyatı yalnız banan ölkələrin sakinlərinin həyatı ilə müqayisə oluna bilərdi. Düşmən ard-arda rayonlarımızı, kəndlərimizi işğal eləyirdi, başıpozuq ordumuz (əgər ona ordu demək olardısa) isə mövqelərimizi qoyub, ölkədə başlayan vətəndaş müharibəsinə sürüklənirdi. Hava qaralanda, kimsə evindən bayıra çıxmağa cəsarət etmirdi. Çünki sahibsiz ölkədə hər tində bir qaçaq, bir soyğunçu-quldur öz şikarını gözləyirdi. Bir şirkət sahibi, Gəncədə təpiyini yerə bərk vuran kimi, hakimiyyətin üst təbəqəsi dabanlarına tüpürüb qaçırdılar. Sadalamaqla bitməyən belə biabırçı faktlarla üz-üzə qalan Azərbaycan cəmiyyəti, məhz 1993-cü ildə atdığı tarixi addımla - Ulu Öndər Heydər Əliyevi hakimiyyətə qayıtmağa razı salmaqla, bütün bunların qarşısını aldı və ölkə xaosdan çıxıb, inkişaf yoluna qədəm qoydu. Ölkə, heç kəsin, o cümlədən də, bu "xilaskarlar"ın belə xəyallarına gətirmədikləri bir vüsətlə inkişaf etdi və bugünkü iftixar hissi doğuran bir dövlətə çevrildi. Bütün bunları görməməkləri təbiidir. Çünki kordan görmək tələb etmək ədalətsizlik olardı. Oxucum məni düzgün anlasın, fiziki gözdən söhbət getmir, mənəvi gözün kor olması daha böyük faciədir ki, bu zavallılar da, o faciəyə çoxdan düçar olublar. Bir daha xatırlatmağa ehtiyac duyuram ki, bayaq haqqında danışdığım həmin xaos dövründə indi "xilaskarlıq" missiyasından danışanlardan biri parlamentin sədri, biri baş nazir, biri dövlət katibi, digər ikisi isə müdafiə və daxili işlər nazirləri kabinetlərində əyləşmişdilər. Adlarını çəkib, ürəkləri bulandırmaq istəmirəm, onsuz da, onları hər kəs gözəl tanıyır. O zaman mənəvi korluqlarını nümayiş etdirən həmin zatların (oxu: zatıqırıqların) həm də kar olduqlarını indi anlamağa başladım. Dünyadakı anti-Azərbaycan qüvvələrin pülədikləri zurnanın səsi hələ onların qulaqlarına çatmırsa, deməli, xalis kardılar. Bu məmləkətin indiki sürətli inkişafını görməyən kordursa, inkişafımızı gözü götürməyən düşmənlərimizin çığır-bağırlarını eşitməmək xalis karlığın əlamətidir. Elə ona görə də, yazıya başlıq seçdim: "Xilaskar"lıq, yoxsa xalis karlıq? Nə önəmi var ki? Cəmi iki səsin - "a" və "i" səslərinin yerini dəyişirik də! Gərəkdir ki, "dostlar"ımız bu dəyişikliyi təbii qəbul eləsinlər və bir də papaqdan-zaddan borc alıb, qoysunlar qabaqlarına...

# Demokratik dövlətdə tətil etmək hüququ

***Azərbaycan Respublikası ƏM-in 230-cu maddəsinin ikinci hissəsinə əsasən, işəgötürən tərəfindən təhlükəsiz əmək şəraiti təmin edilmədikdə və bununla əlaqədar sağlamlığı və ya həyatı üçün təhlükə olduqda, işçi əmək funksiyasının icrasından imtina və müəyyən olunmuş qaydada təkbaşına tətil elan edə bilər. Lakin əsas fərq bundan ibarətdir ki, bu halda, işçi özünün fərdi hüquqlarını, tətil zamanı isə kollektiv hüquqları müdafiə edir.***

Birinci halda, söhbət işçinin əmək hüquqlarının pozulmasından gedir. Kollektiv əmək mübahisələri isə, əsasən, mənafelərin ixtilaflı ucbatından, yəni yeni əmək şərtlərinin müəyyən edilməsi, yaxud mövcud əmək şəraitinin dəyişdirilməsi ilə əlaqədar yaranır. İkincisi, tətil əmək funksiyasının icrasından müvəqqəti imtinadır. İşçilər, hətta müddətsiz tətil elan etdikdə belə, onun vaxt hüdudu mövcuddur. Orta hesabla tətillər təxminən 10 gün davam edir və müxtəlif səbəblərdən, məsələn, işəgötürənin işçilərin tələblərini təmin etməsi, işçilərin tətildən imtina etməsi, tətilin qanunsuz hesab edilməsi halında başa çatır. Üçüncüsü, tətil əmək funksiyasının icrasından könüllü imtinadır. Heç kim tətildə iştiraka, yaxud iştirakdan imtinaya məcbur edilə bilməz. Dördüncüsü, tətil əmək funksiyasının icrasından tam, yaxud qismən imtinadır. Əmək funksiyasının icrasından tam imtina işin dayandırılmasını ifadə edir. Qismən imtina müxtəlif cür, məsələn, bütün əmək funksiyalarının deyil, yalnız onların bir hissəsinin yerinə yetirilməsində, yaxud işin dövrü fasilələrlə yerinə yetirilməsində, yaxud işin surətinin ləngidilməsində ifadə oluna bilər.

AR Konstitusiyasının 36-cı maddəsinin birinci hissəsinə və AR ƏM-in 270-ci maddəsinin birinci hissəsinə əsasən, işçilərin təkbaşına və ya başqaları ilə birlikdə tətil etmək hüququ vardır. Kollektiv əmək mübahisəsi yarandığı vaxtdan işçilərin və ya həmkarlar ittifaqları təşkilatının tətil etmək hüququ əmələ gəlir. Əgər tərəflər mübahisənin həllinin dinc üsullarından istifadə edəcəkləri barədə razılığa gəlmişlərsə, onda bu üsullarla kollektiv əmək mübahisəsinin həllinə nail olunmadıqda, tətilə yol verilir. İşəgötürən mübahisənin barışdırıcı üsullarla həllini əsassız olaraq uzatdıqda, habelə, barışdırıcı üsullarla əldə edilmiş razılaşmaları yerinə yetirmədikdə, əmək kollektivinin, həmkarlar ittifaqları orqanının birbaşa tətil keçirmək hüququ yaranır. Tətildə iştirak etmək könüllüdür. Zor tətbiq etməklə və ya zor tətbiq etmək hədəsi ilə qorxutmaqla və ya şəxsin maddi cəhətdən asılı olmasından istifadə etməklə, onu tətildə iştirak etməyə və yaxud iştirakdan imtina etməyə məcbur edən şəxslər qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar. AR ƏM-in 275-ci maddəsinə əsasən, tətildə iştirak edən işçilərin əmək vəzifələrinin icrası üçün başqa şəxslərin cəlb edilməsinə yol verilmir.İşəgötürən tətillər təşkil edə və ya tətillərdə iştirak edə bilməz. Kollektiv əmək mübahisəsinin yaranması və tətil keçirilməsi ilə əlaqədar işçilərin işdən çıxarılması, habelə, kollektiv əmək mübahisəsinin yarandığı müəssisənin (filialın, nümayəndəliyin), digər iş yerlərinin ixtisarı, ləğvi və ya yenidən təşkili qadağandır. Qanunvericilik, müvafiq icra hakimiyyəti, məhkəmə və hüquq-mühafizə orqanlarında işləyən vəzifəli şəxslər tətil edə bilməzlər. AR ƏM ilə müəyyən edilmiş kollektiv əmək mübahisələrinin həlli qaydaları, işçilərinin sayından asılı olmayaraq, bütün müəssisələrin işəgötürənləri, müvafiq icra, məhkəmə hakimiyyəti orqanları, əmək kollektivləri və həmkarlar ittifaqları üçün məcburidir. AR ƏM-in 272-ci maddəsinə görə tətilin başlanmasına, ən geci 10 iş günü qalmış, əmək kollektivi və ya həmkarlar ittifaqları orqanı işəgötürənə tətil keçiriləcəyi barədə yazılı məlumat verməlidir. Kollektiv əmək mübahisəsinin həllinin istənilən mərhələsində qısamüddətli (bir saata qədər) xəbərdarlıq tətili keçirilə bilər. Tətilə, ən geci 3 iş günü qalmış, bu barədə işəgötürənə yazılı məlumat verilməlidir (AR ƏM-in 273-cü maddəsi). Tətil hüququ aşağıdakı imkanları (hüquqları) nəzərdə tutur: tətil elan etmək haqqında müstəqil qərar qəbul etmək; tətilin forma və müddəti, habelə, işəgötürənə qarşı irəli sürülən tələblər haqqında məsələləri müstəqil həll etmək; tətili maneəsiz həyata keçirmək (bu zaman ictimai qaydanı təmin etmək və üçüncü şəxslərin hüquqlarını pozmamaq); tətilə rəhbərlik edən orqanın qərarı ilə tətili dayandırmaq; qanunvericiliklə nəzərdə tutulmuş təminatlardan istifadə etmək (tətil edən işçilərin iş yerinin saxlanılması, lokautun qadağan edilməsi və s. İşçilərin tətildə iştirakı hüquqauyğun hərəkət olduğundan, bu hərəkət əmək intizamının pozulması kimi qiymətləndirilə bilməz. Tətildə iştirak edən işçilər barəsində intizam sanksiyalarının tətbiqinin qadağan edilməsi kollektiv əmək mübahisəsi və tətillə əlaqədar işçilər üçün nəzərdə tutulmuş mühüm təminatlardan biridir. Lakin bu qayda tətilin qanunsuz hesab edildiyi hallara aid deyildir. Tətil dövründə əmək münasibətləri davam etdirilir. İşçilərin iş yeri və vəzifəsi saxlanılır. Tətil dövründə işçilər əmək funksiyalarını yerinə yetirmədikləri üçün, işəgötürən tətildə iştirak edən işçilərin tətil dövrü üçün əmək haqqını tam və ya qismən ödəmək hüququna malikdir. Əmək haqqının ödənilməsindən imtina mübahisə üçün əsas ola bilməz. Tətil zamanı yalnız əmək funksiyalarını yerinə yetirməklə məşğul olan, habelə, tətildə iştirakdan imtina etmiş işçilərin əmək haqqı ödənilir. AR ƏM-in 276-cı maddəsinə əsasən, tətildə iştirakdan imtina etmiş şəxslərin öz əmək funksiyasını davam etdirmək hüququ vardır. Bu, mümkün olmadıqda, həmin işçilərin əmək haqqı işçinin təqsiri olmadan məcburi boşdayanma hallarında əmək haqqının ödənilməsi qaydalarına uyğun olaraq ödənilir. Konstitusiya tətil hüququnun həyata keçirilməsinin təminatlarından biri də lokautun qadağan edilməsidir. Lokaut işəgötürənin tətilə qarşı özünəməxsus cavab hərəkətidir. AR ƏM-in 284-cü maddəsinin qeydinə əsasən lokaut-kollektiv əmək mübahisələri zamanı yerinə yetirilməsi işəgötürənin istehsal, iqtisadi, maliyyə imkanlarına uyğun olmayan kollektiv tələblərlə, hüquqlarını və mənafeyini pozmaq cəhdi ilə keçirilən qanunsuz və əsassız tətillərin qarşısını almaq məqsədi ilə onun və ya mülkiyyətçi tərəfindən müəssisənin fəaliyyətinin müvəqqəti dayandırılması barədə elandır. İşəgötürənin lokaut elan etmək hüququnun məhdudlaşdırılmasını və ya qadağan edilməsini əmək qanunvericiliyinin nailiyyəti kimi qiymətləndirmək olar. AR ƏM-in 284-cü maddəsinə əsasən, işəgötürən aşağıdakı hallarda işçilərini, həmkarlar ittifaqları təşkilatını və müvafiq icra hakimiyyəti orqanını, azı 10 gün qabaqcadan yazılı xəbərdar etməklə, müəssisəni bağlayacağı barədə lokaut elan edə bilər: işəgötürənin qarşısında qoyulan kollektiv tələblərin yerinə yetirilməsi onun istehsal, iqtisadi, maliyyə və digər imkanlarına açıq-aşkar uyğun olmadıqda; qanunsuz elan olunmuş tətil davam etdirildikdə; onunla rəqabətdə olan işəgötürən (işəgötürənlər) və ya digər şəxslər tərəfindən tətilin keçirilməsinə işçilərin sövq edildiyi barədə təkzibolunmaz sübutlar, faktlar olduqda. İşəgötürən lokaut elan etməzdən əvvəl, işçilərlə və həmkarlar ittifaqları təşkilatı ilə danışıqlar aparmalı, tətilin dayandırılıb işə başlanılması barədə razılığa nail olmaq üçün bütün imkanlarından istifadə etməlidir. Lokautun elan edilməsi üçün əsas hesab edilən hallar aradan qaldırılmadıqda, işçilərə edilmiş xəbərdarlıq müddəti bitdikdən sonra işəgötürən lokaut elan edərək, müəssisəni müvəqqəti bağlaya bilər. Dövlət mülkiyyətində olan və ya mülkiyyətinin yarısından çoxunda dövlətin payı olan müəssisələrin işəgötürəni tərəfindən lokaut elan edilməsi qadağandır. İşçilərin müraciəti əsasında lokautun qanunauyğun elan edilməsi və əsaslandırılması məsələsinə məhkəmə tərəfindən baxılır. Məhkəmə işəgötürən tərəfindən elan olunmuş lokautu əsassız və qanunsuz hesab edərsə, işçilərə dəyən maddi və mənəvi ziyanın ödənilməsi, habelə, işəgötürənin qanunvericiliklə müəyyən edilmiş qaydada digər müvafiq məsuliyyətə cəlb edilməsi barədə qərar qəbul edir. Tətilin təşkili və keçirilməsi. Tətil həm işçilər, həm də işəgötürən üçün ciddi nəticələrlə əlaqədar olan kollektiv əmək mübahisəsinin həll edilməsinin xüsusi üsuludur. Ona görə də, qüvvədə olan əmək qanunvericiliyi tətilin keçirilməsinin xüsusi prosedurunu müəyyən etmişdir. Bu prosedurlardan hər hansı birinə əməl edilməməsi tətilin qanunsuz və əsassız hesab edilməsinə gətirib çıxarır. Tətilin keçirilməsi özündə aşağıdakı mərhələləri birləşdirir:

1) tətilin keçirilməsi haqqında qərarın qəbul edilməsi;

2) tətilin elan edilməsi (işəgötürənin xəbərdar edilməsi);

3) işin dayandırılması və barışdırıcı prosedurların həyata keçirilməsi;

4) zəruri olduğu hallarda tətilin dayandırılması;

5) razılığın əldə edilməsi (tətilin qanunsuz hesab edilməsi) və tətilin başa çatması. Tətilin keçirilməsi haqqında qərar işçilərin yığıncağında (konfransında) və yaxud həmkarlar ittifaqı təşkilatı (birliyi) tərəfindən qaydada qəbul edilir (AR ƏM-in 271-ci maddəsi). Tətilin keçirilməsi haqqında qərarı işçilərin nümayəndəsi deyil, bilavasitə işçilərin özləri qəbul edir. Bunun üçün işçilərin ümumi yığıncağı, yaxud konfransı çağırılır. İşçilərin, yaxud konfrans nümayəndələrinin siyahı üzrə tərkibinin 2/3 hissəsi iştirak etdiyi halda, işçilərin yığıncağı (konfransı) səlahiyyətli hesab olunur. Tətilin elan olunması haqqında qərar onun lehinə yığıncaq (konfrans) iştirakçılarının yarısından çoxunun səsverməsi halında qəbul olunur. Qanunvericilik səs vermə qaydasına dair xüsusi tələblər (gizli, yaxud açıq) müəyyən etməmişdir. Bu məsələlər bilavasitə yığıncaq (konfrans) tərəfindən həll olunur. Bu zaman qəbul edilmiş qərar yazılı formada tərtib edilir. Tətilin başlanmasına, ən geci on iş gün qalmış, əmək kollektivi və ya həmkarlar ittifaqı orqanı işəgötürənə tətil keçiriləcəyi barədə yazılı məlumat verməlidir. Kollektiv əmək mübahisəsinin həlli məqsədi ilə, tətilin həyata keçirilməsinin üçüncü mərhələsi onunla xarakterizə olunur ki, tətildə iştirak etmək haqqında qərar qəbul etmiş işçilər işləri dayandırır, tətilə başçılıq edən orqan isə barışdırıcı prosedurların təşkilində və həyata keçirilməsində iştirak edirlər. Tətilin keçirildiyi dövrdə tərəflər kollektiv əmək mübahisələrinin həlli üçün danışıqları davam etdirməyə borcludurlar. Tərəflərin razılığı ilə, tətilin uzun müddət davam etdirilməsi nəticəsində insanların təhlükəsizliyi, sağlamlığı üçün təhlükə yaranarsa, bu təhlükənin qarşısını almaq üçün, habelə, cəmiyyətin mühüm həyati marağı ilə bağlı olan müəssisələrdə tətil keçirildiyi zaman minimum zəruri işlərin (xidmətlərin) aparılması təmin edilməlidir. Razılıq əldə olunmadığı halda, minimum zəruri işlər (xidmətlər) müvafiq icra hakimiyyəti orqanı, yaxud bələdiyyələr tərəfindən görülür. Qanunvericilikdə minimum zəruri işlərin (xidmətlərin) dairəsinin müəyyən edilməsinin iki meyarı təsbit olunmuşdur: a) tətilin uzun müddət davam etdirilməsi nəticəsində dayandırılması, insanların həyat və sağlamlığı üçün təhlükə yarada biləcək işlər yerinə yetirilir (xidmətlər göstərilir): b) cəmiyyətin mühüm həyati marağı ilə bağlı olan müəssisələrdə tətil keçirilən zaman həmin işlər (xidmətlər) yerinə yetirilir. Tətilin dayandırılması fakültativ mərhələdir və bu olmaya da bilər. Tətilin dayandırılması haqqında qərar tətilə başçılıq edən orqan tərəfindən qəbul edilir. Məsələn, işəgötürənlə müəyyən razılaşma əldə olunduqda. Tətilin dayandırılmasını tətilin başa çatması ilə eyniləşdirmək olmaz. Bu, bir qayda olaraq, əvvəlcədən müəyyən edilmiş müddətə malik müvəqqəti tədbirdir. Müddətin bitməsi müəyyən olunmuş təqvim tarixi, yaxud hansısa hadisə ilə əlaqələndirilir. Qüvvədə olan əmək qanunvericiliyi, faktiki olaraq, tətilin başa çatması və ya dayandırılmasının müxtəlif əsaslarını müəyyən etmişdir. AR ƏM-in 279-cu maddəsinə əsasən, işəgötürən tətilçilərin tələbini qəbul etdikdə, tərəflər barışıq sazişi bağladıqda və ya işçilər tətili davam etdirməkdən imtina etdikdə, tətil başa çatmış hesab olunur. Tətil qanunsuz elan edildikdə, hərbi və ya fövqəladə vəziyyətlə əlaqədar qadağan edildikdə, dərhal dayandırılmalıdır.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# Bakcell abunəçilərinə təqdim olunan ekskluziv endirim və imtiyazlar gündən günə artır




Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti ölkənin ən genişmiqyaslı loyallıq proqramını həyata keçirməklə öz abunəçilərini ekskluziv endirimlər və imtiyazlarla təmin etməyə davam edir. Artıq 5 ildən çoxdur ki Azərbaycanda ən uğurlu loyallıq proqramlarından biri hesab olunan "Ulduzum"un geniş partnyor şəbəkəsi 270 yerli və beynəlxalq tərəfdaşın 400-dən artıq satış və xidmət nöqtəsindən ibarətdir və bu göstərici gündən günə artmaqdadır.

"Ulduzum" proqramının ən aktiv və populyar tərəfdaşları siyahısında yer alan "158 Taxi" xidməti və "Pierre Cardin" mağazalar şəbəkəsi ötən ilin oktyabr ayından başlayaraq istifadəçi sayının artımı üzrə yüksək templər nümayiş etdirirlər.

2018-ci ilin oktyabr ayından bəri "Ulduzum" proqramının tərəfdaşı olan "Pierre Cardin" mağazalar şəbəkəsinin təklif etdiyi kampaniyadan təkcə son 3 ay ərzində min nəfərdən çox Bakcell abunəçisi yararlanıb. "Ulduzum" istifadəçilərinə Pierre Cardin mağazalarında yeni kolleksiyaya 10%, 50%-dək endirimli məhsullara isə 5% endirim təqdim olunur.

"Pierre Cardin", "Karaca" və "Roman" brendləri olaraq "Ulduzum" ilə əməkdaşlıqdan çox razıyıq. Ulduzum proqramı həm texniki həm də marketinq baxımından Azərbaycanda ən inkişaf etmiş proqramlardan biridir. Həmçinin proqram vasitəsi ilə biz də öz müştərilərimizin loyallığını artıraraq, onlara maraqlı kampaniyalar təqdim etmiş oluruq. Əməkdaşlığımız zamanı müxtəlif kanallar vasitəsi ilə brendimiz təşviq olunur və daha çox kütləyə tanınır. Proqram çərçivəsində Ulduzumun dəstəyi ilə müştərilərimiz ilə əlaqəmiz daha da möhkəmlənir" deyə "Pierre Cardin", "Karaca" və "Roman" mağazalarının rəhbəri Onur Efe qeyd edib.

2018-ci ilin oktyabr ayından etibarən "Ulduzum" tərəfdaşı olan "158 Taxi" xidmətinin xüsusi təklifindən qısa müddət ərzində min nəfərdən çox Bakcell istifadəçisi yararlanıb. Xüsusi kampaniyanın şərtlərinə əsasən "Ulduzum" kodu vasitəsilə sifariş olunmuş hər 5 gedişdən sonra abunəçilərə 1 PULSUZ gediş təqdim edilir.

"Hər bir Ulduzum istifadəçisi 158 Taxi sifariş verərkən pulsuz gedişlər qazana bilər. Bunun üçün əsas şərt müştərinin Ulduzum istifadəçisi olmasıdır. Pulsuz gedişlər 158 TAXI müştəriləri üçün olduqca cəlbedici və effektivdir. Kampaniyanın, yalnız Ulduzum istifadəçilərinə şamil edilməsi isə rəqabət şəraitində müştərilər arasında səmərəli seçim şansı yaradır. Bakcell şirkəti ilə uğurlu əməkdaşlıq qurmaqdan böyük məmnuniyyət duyuruq. Düşünürük ki, bu əməkdaşlığın davamlı olması rəqabətli bazar mühitində atılan səmərəli addımlardan biridir" deyə "158 Taxi" xidmətinin Müştəri Marketinqi üzrə meneceri İbrahim Osmanov bildirib.

Bu günə kimi "Ulduzum" loyallıq proqramına 3 milyondan artıq Bakcell abunəçisi qoşulub. Proqramın istifadəçiləri populyar restoran və otellər, nüfuzlu geyim, parfümeriya və elektronika mağazaları ilə yanaşı, sağlamlıq, idman və əyləncə mərkəzləri, ən populyar kinoteatrlar, banklar, kitab dükanları, kabel televiziya provayderləri və digər sahələrdə fəaliyyət göstərən tərəfdaşlarımızın təklif etdiyi özəl kampaniyalar və endirimlərdən yararlanmaq imkanına malikdirlər. Hər bir Bakcell müştərisi "Ulduzum"a qoşula bilər. Bunun üçün heç bir abunə haqqı tələb edilmir. Loyallıq proqramında iştirak etmək üçün "1" rəqəmini 5555 nömrəsinə SMS vasitəsilə göndərmək kifayətdir. Ulduzum barədə daha ətraflı məlumat www.ulduzum.az səhifəsində əldə oluna bilər.

## ELAN

Paşayev Valeh Xeyrulla oğlunun adına verilmiş Sumqayıt şəhəri, 13 m/k bina 5a ev 3 ünvanında yerləşən evin sənədləri (kupça, texniki pasport) itdiyi üçün etibarsız sayılır.

* * *

Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsil fakültəsinin II kurs tələbəsi Nəbizadə Türkan Çingiz qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

Yaqubov Hikmət Əlisgəndər oğlunun adına verilmiş Bakı şəhər, Nizami rayon, Keşlə qəsəbəsi, Puşkin küçəsi 1 "a" ünvanında yerləşən fərdi yaşayış evinə verilmiş Qeydiyyat vəsiqəsi (Seriya FM, №034279) itdiyi üçün etibarsız sayılır.

# Güləş yığmamız İstanbulda 5 medal qazanıb



İstanbulda keçirilən güləş üzrə Vehbi Əmrə və Hamit Kaplanın xatirə turnirinə yekun vurulub. On bir ölkədən 200-ə yaxın güləşçinin mübarizə apardığı yarışın sonuncu günündə yığmamız daha iki medal qazanıb.

SİA-nın məlumatına görə, Murad Məmmədov (60 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Oyan Nəzəriani (130 kq) isə gümüş medala sahib olub.

Beləliklə, millimiz ənənəvi turniri 5 medalla başa vurub. Xatırladaq ki, daha öncə Taleh Məmmədov (63 kq) ikinci, Rafiq Hüseynov (82 kq) və Orxan Nuriyev (97 kq) isə üçüncü yeri tutublar. Yekunda 114 xal toplayan komandamız dördüncü yeri tutub. Qeyd edək ki, II dərəcəli beynəlxalq hakim Vüqar Şükürov yarışda ədaləti qoruyub.

# İnfantinonu FIFA prezidentliyinə seçkidə 196 milli federasiya dəstəkləyəcək



FIFA-nın hazırkı prezidenti Canni İnfantino rəhbər posta növbəti seçkilər üçün quruma üzv olan 196 milli federasiyadan dəstək alıb. TASS informasiya agentliyi xəbər verir ki, Canni İnfantinonun bu seçkilərdə yeganə rəqibi İsveçrə millisinin və İngiltərənin "Tottenhem" klubunun sabiq futbolçusu Ramon Veqadı. Onun FIFA-nın işindən narazı olan federasiyaların dəstəyini qazanmağa çalışdığı bildirilir.

FIFA prezidentliyinə namizədliyin irəli sürülməsi üçün son tarix fevralın 5-dir. Rəhbər posta seçki iyunun 5-də Fransanın paytaxtı Parisdə qurumun Konqresi çərçivəsində keçiriləcək. Qeyd edək ki, İnfantino 2016-cı ilin fevralından FIFA-ya başçılıq edir.

# Mamadu Mbodj: "İlk rəsmi oyunumda qol vurduğum üçün çox xoşbəxtəm"



"Bizim üçün çox yaxşı oyun oldu. Güclü rəqibə qarşı oynadıq. Bura qələbə üçün gəlmişdik. Heç-heçəni də müsbət nəticə saymaq olar". AZƏRTAC xəbər verir ki, bunu "Neftçi"nin futbolçusu Mamadu Mbodj Azərbaycan Premyer Liqasının XV turunda "Qarabağ"la 1:1 hesablı heç-heçədən sonra deyib.

Qarşılaşmanın 30-cu dəqiqəsində cavab qolunu vuran seneqallı müdafiəçi komandası üçün faydalı olmağa çalışdığını deyib: "İlk rəsmi oyunda qol vurduğum üçün sevinirəm".

# Kişilər arasında sambo üzrə Azərbaycan çempionatının qalibləri müəyyənləşib



Kişilər arasında sambo üzrə Azərbaycan çempionatına yekun vurulub. 200-ə yaxın samboçunun iştirak etdiyi yarışda Ağasif Səmədov (52 kq), Eyvaz Baxşıyev (57 kq), Mehman Xəlilov (62 kq), Fərid Mikayılov (68 kq), Emin Həsənov (74 kq), Ceyhun Hüseynov (82 kq), Bəxtiyar Abbasov (90 kq), Çingiz Ramazanov (100 kq), Vasif Səfərbəyov (+100 kq) Azərbaycan çempionu adına layiq görülüblər. Sonda qaliblərə kubok, diplom və hədiyyələr təqdim edilib.

# Balotelli A Seriyasına qayıtmaq istəmir



"Marsel"in hücumçusu Mario Balotelli A Seriyasına qayıtmaq barədə düşünmür. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, forvard İtaliya çempionatının darıxdırıcı olduğunu bildirib: "Yaxın vaxtlarda geri dönəcəyimi düşünmürəm. A Seriyasında taktikadan çox istifadə edilir. Ora həm də darıxdırıcıdır. Bununla belə, karyeramı "Breskia"da başa vurmaq istəyirəm. Xatırladaq ki, Balotelli indiki klubuna "Nays"dan transfer olunub.

Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500